22 iyul – Milli Mətbuat günüdür

№ 29 (1024) 19-25 iyul 2018-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## İlham Əliyev: “Biz strateji tərəfdaşıq, siyasi əlaqələrimiz çox yüksək səviyyədədir”



Azərbaycan Respublikasına rəsmi səfərə gələn İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın iyulun 18-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə təkbətək görüşü olub.

Görüşdə Azərbaycan ilə İtaliya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər istiqamətlərdə uğurla inkişaf etdiyi vurğulandı. İtaliya Prezidenti Sercio Mattarellanın Azərbaycana rəsmi səfərinin əlaqələrimizin genişləndirilməsinə töhfə verəcəyinə əminlik ifadə olundu.

Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

İyulun 18-də təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

İyulun 18-də geniş tərkibdə görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın iştirakı ilə sənədlərin imzalanması mərasimi olub.

İyulun 18-də sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İtaliya Respublikasının Prezidenti Sercio Mattarella mətbuata bəyanatlarla çıxış ediblər.

**Azərbaycan Prezidenti İlham Əliyev demişdir:**

**-Bu səfər İtaliya Prezidentinin Azərbaycana ilk səfəridir. Bu səfər tarixi bir səfərdir. Əminəm ki, səfər çox uğurlu keçəcək və İtaliya-Azərbaycan əlaqələri bundan sonra da uğurla inkişaf edəcək. Bizim əlaqələrimiz çoxşaxəlidir, bir çox sahələri əhatə edir. Bu gün apardığımız danışıqlarda, keçirdiyimiz görüşlərdə bir çox məsələlər müzakirə edildi. Regional inkişaf və regional təhlükəsizlik məsələləri, Avropa İttifaqı-Azərbaycan əlaqələri, siyasi, iqtisadi ikitərəfli əlaqələrimiz – bir çox məsələlər müzakirə edildi və deyə bilərəm ki, bütün məsələlərlə bağlı bizim fikirlərimiz üst-üstə düşür.**

İtaliya hazırda ATƏT-in sədridir. Biz ümid edirik və əminik ki, İtaliya ATƏT-in sədri kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində fəal rol oynayacaqdır. Mən cənab Prezidenti münaqişə ilə bağlı məlumatlandırdım, danışıqların hazırkı vəziyyəti ilə bağlı Azərbaycanın mövqeyini ifadə etdim. Biz istəyirik ki, bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tezliklə öz həllini tapsın. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan tarixi torpaqları – Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayon uzun illərdir ki, Ermənistanın işğalı altındadır. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal altındadır və 1 milyondan çox azərbaycanlı məcburi köçkün, qaçqın vəziyyətində yaşayır. Xalqımıza qarşı hərbi cinayətlər törədilmişdir. İşğal edilmiş torpaqlarda bizim tarixi, dini abidələrimiz məhv edilmişdir. ATƏT işğal edilmiş bölgələrə iki dəfə faktaraşdırıcı missiya göndərmişdir. Bu missiyaların məruzələrində göstərilir ki, bütün tarixi abidələrimiz, infrastruktur obyektləri Ermənistan tərəfindən dağıdılıb. Münaqişənin həlli üçün hüquqi əsas var. BMT Təhlükəsizlik Şurası 25 il bundan əvvəl 4 qətnamə qəbul etmişdir. Bu qətnamələrdə göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Bu qətnamələr qüvvədədir və bu qətnamələrin icrası təmin edilməlidir. Əfsuslar olsun ki, Ermənistan uzun illərdir bu qətnamələrə məhəl qoymur, öz işğalçı siyasətini davam etdirir və status-kvonu saxlamaq istəyir. Bu məsələ ilə birbaşa məşğul olan Minsk qrupunun həmsədr ölkələri prezidentlər səviyyəsində dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Biz bu mövqeyi dəstəkləyirik və hesab edirik ki, tezliklə münaqişənin həlli üçün addımlar atılmalıdır, Ermənistanın işğalçı qüvvələri bizim tarixi torpaqlarımızdan çıxarılmalıdır.

Bir həftə bundan əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında paraflanmış “Tərəfdaşlığın prioritetləri” sənədində də Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərin toxunulmazlığına bir daha Avropa İttifaqı tərəfindən dəstək göstərilmişdir. Bir gün ondan sonra NATO Zirvə görüşünün nəticəsində qəbul edilmiş Bəyannamədə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi dəstəklənib.

Bu gün biz Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələri müzakirə etdik. İtaliyanın bu məsələlərlə bağlı çox müsbət rolu və mövqeyi var. Ümid edirəm ki, yaxın gələcəkdə Avropa İttifaqı ilə Azərbaycan arasında yeni saziş imzalanacaq. Saziş üzərində iş aparılır və biz Avropa İttifaqına üzv ölkələrlə strateji tərəfdaşlıq bəyannamələri imzaladıq, qəbul etdik. **Doqquz ölkə ilə, o cümlədən İtaliya ilə belə bəyannamələr qəbul edildi. 2014-cü ildə İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə qəbul edilmişdir. Bu, çox ciddi siyasi sənəddir, əslində bizim bir-birimizə olan münasibəti və gələcək əməkdaşlıq formatını göstərir və müəyyən edir.**

O ki qaldı ikitərəfli əlaqələrə, qeyd etdiyim kimi, biz strateji tərəfdaşıq, siyasi əlaqələrimiz çox yüksək səviyyədədir və İtaliya Prezidentinin Azərbaycana rəsmi səfəri bunun bariz nümunəsidir. Azərbaycan tərəfdaş ölkələrlə birlikdə hazırda “Cənubi Qaz Dəhlizi” layihəsini uğurla icra edir. Bu, 40 milyard dollar dəyərində olan layihədir, onun böyük hissəsi icra edilib. Bu il Cənub Qaz Dəhlizinin rəsmi açılışı Bakıda olmuşdur. Onun böyük hissəsini təşkil edən TANAP layihəsinin Əskişəhər şəhərində açılışı olmuşdur. Yəni, bu istiqamətdə işlər uğurla gedir və bu, eyni zamanda, Avropa İttifaqı-Azərbaycan əlaqələrinin inkişafı üçün mühüm rol oynayır. **İtaliya şirkətləri Azərbaycanda uğurla fəaliyyət göstərir. Bu gün açılacaq polimer zavodunun inşasında İtaliya şirkəti fəal iştirak edib. Azərbaycanda bir çox İtaliya şirkətləri fəaliyyət göstərir.** Biz bu gün bu məsələ ilə bağlı da danışdıq və mən Prezident Mattarellaya dedim ki, İtaliya şirkətləri üçün Azərbaycanda bütün qapılar açıqdır, biz onların səviyyəsini bilirik, onlar çox yüksək texnologiyaya malik olan şirkətlərdir. Azərbaycanda inşaat sektorunda, kənd təsərrüfatı sahəsində, ağır sənaye sahəsində bir çox layihələr icra ediblər və çox yüksək səviyyədə icra ediblər. Əlbəttə ki, keçirilən görüşlər və sabah iştirak edəcəyimiz İtaliya-Azərbaycan biznes forumu qarşımızda yeni imkanlar açacaq.



# Azərbaycan dövləti və xalqı bu sınaqdan da üzüağ çıxdı



**AKADEMİKLƏRDƏN DƏ GƏNCƏ HADİSƏLƏRİNƏ SƏRT TƏPKİ GƏLDİ**

"Bir Azərbaycan ziyalısı, bir Azərbaycan vətəndaşı, bir millət vəkili kimi 10 iyul tarixində Gəncədə baş verənlərə çox üzüldüm. Bu, Azərbaycan dövlətinə qarşı onu istəməyən qüvvələr tərəfindən edilən qəsddir, təxribatdır, terror aktıdır. Bu hadisəni törədənləri və onların arxasında dayanan qüvvələri qətiyyətlə pisləyir və bildirmək istəyirəm ki, bununla Azərbaycan dövləti və dövlətçiliyinə heç nə edə bilməyəcəklər, 90-cı illərdə olduğu kimi, bundan sonra da bu cür cəhdlər məğlubiyyətə, fiaskoya uğradılacaq. Çünki güclü, qüdrətli, dünyada sözü və nüfuzu ilə hesablaşılan Azərbaycan dövləti, İlham Əliyev kimi liderimiz var".

Bunu "525"-ə açıqlamasında akademik, millət vəkili Ziyad Səmədzadə deyib. Z.Səmədzadə xatırladıb ki, ötən əsrin 90-cı illərinin əvvəllərində, mərhum dövlət başçısı Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycanda əsl dövlət quruculuğuna, ölkənin müdafiə qabiliyyətinin artırılmasına, iqtisadiyyatın inkişafına və möhkəmləndirilməsinə start verildi.

Onun sözlərinə görə, ancaq bu siyasət, müstəqil dövlətçilik kursu o zamanlar bəzi daxili və xarici qüvvələri heç cür razı sala bilmir, hər vəchlə onun qarşısının önləməsinə, kəsilməsinə yönəlmiş cəhdlərə əl atılırdı.

O deyib ki, xüsusilə, dünyanın nüfuzlu neft şirkətləri ilə kontraktların imzalanmasına, "Bakı-Tbilisi-Ceyhan" layihəsinin baş tutmasına qısqanclıqla yanaşılır, ən ağlasığmaz maneçiliklər, əngəllər törədilməyə çalışılırdı: "Ancaq müdrik Heydər Əliyevin iradəsi, qətiyyəti sayəsində bütün təzyiqlərə, təhdidlərə sinə gərildi, bütün maneələr, əngəllər aşıldı və 1994-cü ilin sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. Bununla da Azərbaycan dövləti və dövlətçiliyinin tarixində yeni mərhələyə qədəm qoyuldu.

Düzdür, Azərbaycanı istəməyən qüvvələr yenə sakitləşmədilər, məğlubiyyətləri ilə barışmaq istəmədilər, 1994-cü ilin oktyabr və 1995-ci ilin mart aylarında növbəti dəfə dövlət çevrilişlərinə cəhd etdilər, amma yenə də alınmadı, niyyətlərinə nail ola bilmədilər, Heydər Əliyev-xalq birliyi sayəsində ölkəmizə, müstəqilliyimizə qarşı yönəlmiş məkrli planlar dəf edildi. Azərbaycan bu gün də böyük uğurlara, böyük layihələrə imza atır. Cəmi 3 ay ərzində az qala əsrə bərabər olacaq addımlar atılıb. Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi, TANAP-ın işə düşməsi, müstəqilliyimizin və ordumuzun 100 illiyinin yüksək və təntənəli şəkildə qeyd olunması, illərlə yaddaşlardan silinməyəcək Hərbi Paradın keçirilməsi, TAP-la bağlı mühüm addımların atılması və sair, bunlar hamısı böyük işlərdir, Azərbaycanın gücü, qüdrəti deməkdir. Amma bu uğurlar, Azərbaycanın nəinki regionun, Avropanın və dünyanın enerji təhlükəsizliyinin təmin olunmasında əsas aktyorlardan birinə çevrilməsi yenə də düşmənlərimiz, antiazərbaycan dairələrini rahatsız etməkdə, yuxularını ərşə çəkməkdədir. Onlar hər dəfə məğlubiyyətə məhkum edilsələr də, yenə də öz məkrli niyyətlərindən əl çəkmək istəmirlər və əllərinə düşən hər fürsətdən ölkəmizə qarşı yararlanmağa çalışırlar. Gəncədə baş verənlər də məhz bunların əlamətləri, Azərbaycanı çalxalamaq, yolundan döndərmək istəyən qüvvələrin son çırpınışlarıdır. Lakin yenə də alınmadı, yenə də hesabları düz çıxmadı, din amili də işə yaramadı. Çünki alına da bilməzdi. Azərbaycan hüquqi, dünyəvi, demokratik dövlətdir, bu yolla da inkişafına doğru irəliləyir. Xalqımız da müdrik, ağı qaradan seçməyi bacaran, dünyəviliyi, demokratik dəyərləri bölüşən, həmçinin öz milli adət-ənənlərinə, gözəl İslam dininə sadiq qalan bir xalqdır. Onu artıq nə iləsə aldatmaq, şirnikləndirmək, öz dəyərlərindən imtina etdirmək olmaz və mümkün deyil. Gəncə hadisələrinə münasibətdə də, bu, bir daha özünün əyani sübutunu ortaya qoydu".

Millət vəkilinin bildirdiyinə görə, bu gün Azərbaycanda güclü xalq-iqtidar birliyi mövcuddur və bu birlik ölkəmizdə bütün problemlərin aradan qaldırılmasına imkan verir: "Bir daha qeyd edirəm ki, Gəncədə baş verən hadisələr ölkənin sabitliyinə, inkişafına qarşı yönələn məkrli planın tərkib hissəsidir və bu planı hazırlayanların hədəfində Azərbaycan dövlətçiliyi, müstəqilliyi dayanır. Bu əməli törədənlər faktiki olaraq terrorçulardır və onlar Azərbaycan dövlətinə qarşı terror törədiblər. Müxtəlif ölkələrdə - Liviyada, Suriyada, Yəməndə, İraqda baş vermiş qanlı hadisələri, ssenariləri Azərbaycanda da təkrarlamaq istəyən, ölkəmizdə böyük qırğınlar törətmək niyyətində olan bu dağıdıcı ünsürlərin məqsədi Azərbaycanda xaos və qarşıdurma yaratmaqdır. Lakin bu ünsürlər, terrorçular, təxribatçılar öz istəklərinə çata bilməyəcəklər. Çünki Azərbaycan xalqı cənab prezidentin həyata keçirdiyi siyasəti dəstəkləyir və onun ətrafında sıx birləşib. Bu ilin aprel ayında keçirilən prezident seçkilərində də biz bir daha bu reallığın şahidi olduq. Ona görə də Azərbaycanın müstəqilliyini, dövlət quruluşunu, ölkəmizdəki sabitliyi hədəf alan hər bir qüvvə bu birlik qarşısında acizdir. Azərbaycan xalqı Gəncədə baş verən təxribatlara qarşı da öz barışmaz mövqeyini ortaya qoydu. Xalqımız dövlətimizin ətrafında bir yumruq kimi birləşərək pozucu qüvvələrə meydan vermədi. Ölkənin tanınmış ziyalıları, kütləvi informasiya vasitələri, sosial şəbəkələrdə fəallıq göstərən vətəndaşlarımız təxribat əməllərini kəskin şəkildə pisləyərək öz dövlətinə sahib çıxdı. Bax, budur, əsl vətəndaşlıq mövqeyi, xalqın, cəmiyyəin birliyi. Azərbaycan dövləti, dövlətçiliyi, milli maraqlarımız heç vaxt müzakirə mövzusu deyil və bu dəyərlərə qarşı atılan hər bir addımda dövlətini, xalqını sevən hər bir azərbaycanlı öz qəti mövqeyini ortaya qoyur. Bu hadisəni törədənlər, Azərbaycanda təxribat törətmək arzusunda olanlar da bilməlidirlər ki, Azərbaycan güclü dövlətdir və bu kimi cəhdlərlə müstəqilliyimizə xələl yetirmək mümkün deyil".



*Akademik Fuad Əliyev*

Millət vəkili vurğulayıb ki, baş verən hadisələr zamanı diqqətçəkən mühüm məqamlardan biri də təhlükəsizlik orqanlarının, o cümlədən, Azərbaycan polisinin yüksək vətənpərvərlik, peşəkarlıq nümayiş etdirməsidir: "Rəşadətli, qətiyyətli Azərbaycan polisi ən çətin məqamlarda belə öz dövlətinə, dövlətçiliyimizə sədaqətlə xidmət edir. Azərbaycan polisi bir daha sübut etdi ki, xalqımızın, dövlətimizin təhlükəsizliyini qorumaq üçün öz canını qurban verməyə hazırdır. Eyni zamanda, Azərbaycanın ən mürəkkəb situasiyalarda belə milli maraqlarımızı, xalqımızın mənafeyini qətiyyətlə qorumağı bacaran qüdrətli lideri var və Azərbaycan xalqı öz prezidentinin yanındadır. Odur ki, Azərbaycan bundan sonra da öz müstəqillik yolunda inamla addımlayacaq".

AMEA Gəncə bölməsinin akademik-katibi Fuad Əliyev bildirib ki, iş yerim Gəncə Şəhər İcra Hakimiyyətinin inzibati binasının qarşısındadır: "İyulun 10-da axşam saat 20 radələrində bir qrup dini radikal heç bir tələb irəli sürmədən asayişi qoruyan polislərə hücum edib, soyuq silahlarla və kəsici-deşici alətlərlə iki polis əməkdaşını qətlə yetirib".

Akademikin dediyinə görə, sözsüz ki, bu hərəkət dövlətə və dövlətçiliyə qarşı böyük bir qəsb və qanlı cinayətdir: "Bu qanlı iğtişaş bir andaca həyata keçirildi. Gəncənin bu meydanı şəhər sakinləri üçün istirahət yeridir. Burada fəvvarələr, oturacaqlar və insanların istirahəti üçün hər cür şərait var. Bu hadisə də elə insanlar parkda istirahət edən vaxt qəfildən baş verdi. Azərbaycanın hüquq-mühafizə orqanlarının əməkdaşları, polislərimiz bu hadisədə böyük rəşadət göstərdilər. Qısa vaxtda - 15-20 dəqiqə ərzində bu iğtişaşın qarşısı alındı, şəhərdə dünən axşamdan asayiş tam bərpa olundu".

F.Əliyev sonra qeyd edib ki, şəhərin ictimai həyatı əvvəlki axarında davam edir: "İnsanlar yenə də gündəlik həyat qayğıları və işləri ilə məşğuldurlar. Biz, şəhər ziyalıları, alimlər Gəncədə son günlərdə baş verən terror hadisəsini və qanlı iğtişaşı böyük nifrətlə qarşılayırıq və bu cür hadisələri qınayırıq. Əminik ki, bu cür cinayətkarlar tezliklə cəzasını alacaq, onların arxasında duran qüvvələr isə ifşa olunacaqlar. Biz heç zaman razı ola bilmərik ki, Cənubi Qafqazın ən sabit və sürətlə inkişaf edən ölkəsi Yaxın və Orta Şərqin, ərəb və Afrika ölkələrinin vəziyyətinə düşsün. Azərbaycan hüquqi dövlətdir. Bura naməlum güclərin xaos poliqonu deyil. Azərbaycanın yolu sabitlik və inkişaf yoludur".

**Kamil HƏMZƏOĞLU**

## Akademik İsa Həbibbəyli: Azərbaycan dövləti sabitliyin möhkəm və etibarlı qarantıdır



"Müasir, müstəqil Azərbaycanın inkişafının ən mühüm amillərindən biri, daha doğrusu, birincisi ölkədə dövlət səviyyəsində ictimai-siyasi sabitliyin qorunub saxlanılması və möhkəmləndirilməsidir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş sabit ictimai-siyasi mühit Prezident İlham Əliyevin apardığı ardıcıl və məqsədyönlü siyasət nəticəsində daha da möhkəmləndirilərək böyük inkişafa geniş meydan açıb. Ona görə də ictimai-siyasi sabitlik müstəqil Azərbaycan dövlətinin ən mühüm nailiyyəti deməkdir və qazanılan böyük uğurların əsasını təşkil edir.

Son günlərdə Gəncədə baş verən hadisələr ölkəmizdə ictimai-siyasi sabitliyin pozulmasına yönəldilib. Sabitliyin hədəfə alınması, çaşqınlıq, xaos yaratmaq və pozuculuq cəhdləri müstəqil dövlətimizin inkişafını gözü götürməyən, buna dözə bilməyən qüvvələrin məqsədyönlü niyyətlərinin ifadəsidir. İndi düşmən qüvvələr qatilləri, terrorçuları din qəhrəmanı kimi qələmə verməyə çalışırlar. Amma unudurlar ki, ölkəmizdə din-dövlət münasibətləri yüksək səviyyədə tənzimlənir. Azərbaycan multikultural və tolerant ölkədir".

Bu fikirləri iyulun 10-da Gəncədə baş verən hadisələrə münasibət bildirərkən Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli söyləyib.

Akademik deyib ki, Gəncə hadisələrində polisin hədəf kimi seçilməsi də təsadüfi deyil. Çünki Azərbaycan polisi müstəqilliyimizin bütün inkişaf mərhələlərində dövlətimizə sədaqətlə xidmət edib. Bu gün Azərbaycan polisinə əl qaldırmaq, atəş açmaq sabitliyin əsas təminatçısı olan polisimizi sarsıtmaq, ictimai rəydə bu inzibati orqanın gücü haqqında formalaşmış müsbət imici aşağılamaq məqsədi daşıyır. Hadisə nə qədər ağır olsa da, sınaqlardan çıxmış Azərbaycan polisini və xalqın ona münasibətini sarsıda bilməz. Ən başlıcası isə Azərbaycan xalqı Prezident İlham Əliyevin apardığı siyasəti ürəkdən dəstəkləyir və müdafiə edir. Sözün həqiqi mənasında, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müstəqil dövlətimizdə möhkəm sabitliyin, ədalətin və inkişafın qüdrətli təminatçısı və qarantıdır. Xalqımız, o cümlədən ziyalılarımız belə məsuliyyətli günlərdə dövlət rəhbərimizin ətrafında daha sıx birləşirlər. Bu gün ölkəmizdə möhkəm birlik və sabitlik hökm sürür. Dövlətimiz ölkəmizdə hər cür sabitliyi və normal həyat tərzini təmin edib. Bu, bizim böyük sərvətimizdir. Bu sərvəti qorumaq hər birimizin şərəfli və məsuliyyətli borcudur.

## Azərbaycan dövləti bütün təxribatların qarşısını almağa qadirdir



Gəncədə baş verən hadisələr, əvvəlcə şəhər icra hakimiyyəti başçısının silahlı sui-qəsdə məruz qalması, bir neçə gündən sonra şəhər mərkəzində vətəndaş qarşıdurması yaratmağa cəhdlərin edilməsi sabitliyi pozmaq istəyindən xəbər verir. Amma belə məkrli niyyətli şəxslər, pozucu qüvvələr heç zaman unutmamalıdırlar ki, Azərbaycan kifayət qədər güclü dövlətdir.

Yerli sakinlərin qeyd etdiyi kimi, şəhərin baş meydanına toplaşan həmin insanların Gəncə ləhcəsinə uyğun olmayan üslubda danışması onların radikal, dini təmayüllü pozucu qüvvələr olduğunu, hansısa mərkəz tərəfindən idarə olunduğunu bir daha ortaya qoyur.

Ölkəmizdə din dövlətdən ayrı olsa da, dövlət bütün dinlər üçün eyni şərait yaradıb. Odur ki, bu hadisələrin imanlı adamlarla, əsl dindarlarla bağlılığı yoxdur. Hadisəni törədənlər xaricdən idarə olunan, Azərbaycanı xaosa, xarabazara çevirmək istəyən və bununla da dövlətimizin dünyəvi təməllərini sarsıdıb dini dövlət qurmaq istəyən radikal qruplaşmaların əməlləridir. Gəncə sakinlərinin belə çağırışlara dəstək verməmələri onu göstərdi ki, gəncəlilər sabitlik tərəfdarıdır, müstəqil dövlətimizin yanındadır, prezidentin siyasətinə güvənir və arxalanırlar. Azərbaycan dövləti çox güclüdür, bütün təxribatların qarşısını almağa qadirdir. Ölkəmiz pozucu qüvvələrə heç bir zaman meydan verməyəcək, həmin qüvvələr tez bir zamanda aşkarlanaraq cinayət məsuliyyətinə cəlb ediləcəklər.

Bir daha baş verən hadisələrdən təəssüfləndiyimizi bildirir, iğtişaşlar zamanı həlak olan polis zabitlərinə rəhmət, ailələrinə və yaxınlarına səbir diləyirik.

Baş verən qanlı hadisələr, bir qrup şəxsin ixtişaş törətmək cəhdləri bizə bir sıra reallığı da yenidən xatırlatdı. Göstərdi ki, Azərbaycan xalqı öz dövlətini, vətənini çox sevir və daim sülhün sabitliyin bərqərar olmasını arzulayır. Əmin olduq ki, Gəncə əhalisi belə təxribatlara heç vaxt uymayacaqdır. Vətənimizin daim ucalması, respublikamızın inkişaf etməsi, ölkəmizin vətəndaşlarının əmin-amanlıq içərisində, dinc şəraitdə yaşamaları uçun milli birliyimizi qorumalı, dövlətimizin, onun Prezidenti İlham Əliyevin ətrafında sıx birləşməliyik. O zaman heç bir təxribatçı qüvvə öz bəd niyyətini həyata keçirməyə müvəffəq olmayacaq.

**Vasim MƏMMƏDƏLİYEV,**
**BDU-nun kafedra müdiri,**
**akademik**

## Bu dövləti heç kim sarsıda bilməz

Milli Məclisin deputatı, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyevin sözlərinə görə, Gəncədə baş verən hadisələrin iştirakçıları vaxtı ilə Suriyada və digər ərəb ölkələrində baş kəsən terrorçuların tör-töküntüləridir. Bu isə onu göstərir ki, bəzi dövlətlərin xüsusi xidmət orqanları hansısa yollarla öz adamlarını ölkəmizdə yerləşdirə biliblər.



O, deyib: "Azərbaycanın gələcəyini sivil dövlət kimi görən bütün qüvvələr vahid mövqedən çıxış etməlidir. Biz, bu radikal dini terrorizmin kökünü kəsməliyik. İmkan verməməliyik ki, belə qüvvələr ölkəmizdə geniş əl-qol aça bilsin. Çalışmalıyıq ki, ölkədə qanunun aliliyi təmin edilsin, bunun üçün ciddi islahatlar aparılsın".

Baş verən iğtişaş zamanı polis çox təmkinli hərəkət edib. Dünyanın hər yerində əlində silah və ya daşla aksiyaya çıxana polis silah tətbiq edir. Bəlkə də Gəncədə polis əməkdaşları silahlı olsa, atəş açılsaydı, nəticə başqa cür olardı: "Bir daha bəyan edirəm ki, hadisə zamanı ekstremist terrorçular tərəfindən qətlə yetirilən polis zabitlərinin qanı hədər getməməlidir. Onlar həyatlarını dövlətimiz üçün qurban ediblər. Gəncə hadisələrində iştirak edən şəxslərin tam dairəsi müəyyən olunmalı və qətli törədənlər, bu prosesə dəstək verənlər, təhrikçilər, təşkilatçılar qanunun sərt üzü ilə cəzalandırılmalıdırlar".

## Azərbaycanda sabitliyi pozmaq istəyənlərin planları puç olacaq



2018-ci ilin ötən dövrü Azərbaycan üçün mühüm uğurlarla əlamətdardır. Bu müddətdə respublikamızda iqtisadi sferada təqdirəlayiq inkişaf göstəriciləri qeydə alınıb, qarşıya qoyulan vəzifələr yerinə yetirilib. Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin iclasında bu barədə ətraflı söz açıldı.

Amma bir məsələ də var ki, Azərbaycanın inkişafı, müstəqil dövlət kimi möhkəmlənməsi dostlarımızı nə qədər sevindirirsə də, düşmənlərimizi də bir o qədər qıcıqlandırır. Düşmənimiz isə təkcə Ermənistan deyil. Bu gün erməni təəssübünü çəkən, Azərbaycanın müstəqil siyasət yürütməsini, Cənubi Qafqazın lider dövlətə çevrilməsini, Avropanın enerji xəritəsinə dəyişikliklər etməsini, güclü ordu formalaşdırmasını, mühüm iqtisadi inkişaf göstəricilərinə malik olmasını həzm edə bilməyən bir sıra antiazərbaycançı dairələr ölkəmizi yüksəliş yolundan çıxarmaq üçün ən riyakar planları belə həyata keçirməkdən çəkinmirlər.

İyulun 10-da Gəncədə baş verən hadisələr din pərdəsi altında fəaliyyət göstərən, əslində isə xarici dairələr tərəfindən idarə olunan terrorçuların Azərbaycanda ictimai-siyasi sabitliyi pozmaq və qarşıdurma yaratmaq cəhdi idi. Həmin xarici dairələrin başlıca məqsədi əhalinin kütləvi şəkildə hakimiyyətə qarşı radikal çıxışlarını təşkil etmək, Şərqdə baş verən qanlı ssenariləri Azərbaycanda təkrarlamaq və ölkəni Liviyaya, Suriyaya çevirməkdir. Bunun üçün bəzi radikal dini dünyagörüşünə malik, dövlətçiliyin, müstəqilliyin nə olduğunu dərk etməyən ünsürlər vasitəsilə insanları itaətsizliyə çağırıb, sosial şəbəkələr vasitəsilə hakimiyyət orqanlarını hədələmiş, hüquqazidd və qeyri-konstitusion çağırışlar etmişlər. Bu mənada Gəncədə baş verənlər dövlətə və dövlətçiliyə edilən qəsd idi.

Lakin bu antimilli ideyanın müəllifləri unudublar ki, birincisi, Azərbaycanda hakimiyyətlə xalq arasında sarsılmaz birlik mövcuddur. İkincisi isə, Azərbaycan güclü dövlətdir. Ona görə ölkəmizə qarşı bu cür riyakar metodlarla təsir və təzyiq göstərmək, onu öz inkişaf yolundan döndərmək mümkün deyil.

**Nəsib MƏHƏMƏLİYEV,**
**Milli Məclisin deputatı**

# Azərbaycanla NATO arasında güclü tərəfdaşlıq əlaqələri regional təhlükəsizlik və sabitlik məsələlərində mühüm rol oynayır

İyulun 11-12-də Prezident İlham Əliyevin Belçikaya səfəri çərçivəsində Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyevin və Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qaninin görüşü olub.

Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olunmuş, Azərbaycanın Əfqanıstana humanitar sahədə göstərdiyi dəstək xüsusi vurğulanmışdır.

* * * *

İyulun 12-də Brüsseldə NATO-nun Əfqanıstanda həyata keçirdiyi əməliyyata töhfə verən tərəfdaş ölkələrin dövlət və hökumət başçılarının və potensial əməliyyat tərəfdaşlarının iştirakı ilə Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşü keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak etmişdir.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 12-də Brüsseldə BMT baş katibinin siyasi məsələlər üzrə müavini Rozmari Dikarlo ilə görüşüb.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsi müzakirə edilmişdir. Həmçinin ATƏT-in həmsədr ölkələrinin nazirlərinin iyulun 11-də keçirilən görüşü barədə məlumat verildi və ətraflı fikir mübadiləsi aparılmışdır.

* * * *

İyulun 12-də Brüsseldə NATO-nun Əfqanıstanda həyata keçirdiyi əməliyyata töhfə verən tərəfdaş ölkələrin dövlət və hökumət başçılarının və potensial əməliyyat tərəfdaşlarının iştirakı ilə Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşü olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə iştirak etmişdir.

Azərbaycan Prezidenti İlham ƏLİYEV tədbirdə çıxış edərək demişdir:

**- Azərbaycanla NATO arasında güclü tərəfdaşlıq əlaqələri regional təhlükəsizlik və sabitlik məsələlərində mühüm rol oynayır. 2002-ci ildən başlayaraq Azərbaycan sülhməramlıları NATO hərbçiləri ilə Əfqanıstanda çiyin-çiyinə xidmət edirlər. 2018-ci ilin yanvar ayından Azərbaycan Qətiyyətli Dəstək missiyasındakı hərbçilərinin sayını 30 faiz artıraraq 120 nəfərə çatdırıb.**

Azərbaycan bir neçə dəfə Əfqanıstan Milli Ordusu üçün Etimad Fonduna maliyyə dəstəyi göstərib. Biz Azərbaycanda Əfqanıstan Ordusunun şəxsi heyəti üçün təlimlər təşkil edirik. Özündə 200-dən çox ictimai xidməti birləşdirən “ASAN xidmət” Əfqanıstanda tətbiq olunur.

Azərbaycan Qətiyyətli Dəstək missiyasına nəqliyyat və logistik dəstək də göstərir.

Ötən ilin oktyabr ayında Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi bu missiyaya tranzit dəstəyi göstərilməsinə böyük dərəcədə kömək edib.



Ötən il Azərbaycan “Asiyanın Qəlbi – İstanbul Prosesi”nə həmsədrlik, keçən ay isə Beynəlxalq Təmas Qrupunun toplantısına ev sahibliyi edib.

Ermənistanın təcavüzündən əziyyət çəkən və bu təcavüz nəticəsində beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi işğal olunmuş, bir milyon soydaşına qarşı məlum acınacaqlı etnik təmizləmə törədilmiş Azərbaycan işğalın və dağıntının iqtisadi və humanitar nəticələrini yaxşı anlayır.

Azərbaycan NATO və bu təşkilatın üzv dövlətləri tərəfindən ölkəmizin siyasi müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə və Ermənistanla münaqişənin bu prinsiplərə əsaslanan həllinə verdiyi davamlı dəstəyi yüksək qiymətləndirir.

Azərbaycan Əfqanıstanın üzləşdiyi təhlükəsizlik təhdidlərinin aradan qaldırması, ölkədə sülh və inkişafın əldə edilməsi işinə köməyini bundan sonra da davam etdirəcək.

## NATO-nun Zirvə toplantısının yekun kommunikesində növbəti dəfə Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə dəstək ifadə olunub



NATO üzv dövlətləri Brüsseldə keçirilən Zirvə toplantısının yekununda qəbul etdikləri kommunikedə növbəti dəfə Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə və eləcə də Ermənistan-Azərbaycan münaqişəsinin bu prinsiplər əsasında həllinə dəstək ifadə ediblər.

Azərbaycanın Xarici İşlər Nazirliyi bununla bağlı bəyanat yayıb.

Bəyanatda deyilir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Brüsseldə NATO-nun Əfqanıstanda həyata keçirdiyi əməliyyata töhfə verən tərəfdaş ölkələrin dövlət və hökumət başçılarının və potensial əməliyyat tərəfdaşlarının iştirakı ilə Qətiyyətli Dəstək missiyası üzrə Şimali Atlantika Şurasının görüşündə iştirak edib. Dövlətimizin başçısı iclasda çıxış edib.

Bəyanatda qeyd edilir ki, 2006-cı ildən başlayaraq NATO üzv dövlətləri Zirvə toplantılarının yekununda qəbul olunan bəyanatlarda Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə davamlı olaraq dəstəklərini ifadə edirlər.

Azərbaycan Respublikası Avropa İttifaqı və NATO üzv dövlətləri tərəfindən müvafiq olaraq Avropa İttifaqı-Azərbaycan Tərəfdaşlıq Prioritetləri Sənədi və NATO-nun Brüssel Zirvə toplantısının kommunikesində növbəti dəfə Azərbaycanın ərazi bütövlüyü, suverenliyinə, o cümlədən sərhədlərinin toxunulmazlığına hörmət və dəstəyin ifadə olunmasını təqdir edir.

Beynəlxalq hüququn norma və prinsipləri, Helsinki Yekun Aktı əsasında dövlətlərin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına hörmət edilməsi və dəstək beynəlxalq münasibətlərin əsasını təşkil edir, davamlı sülh və təhlükəsizliyi şərtləndirən vacib amildir.

## Sumqayıtda “SOCAR Polymer” layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun açılışı oldu




İyulun 18-də Sumqayıt Kimya Sənaye Parkının ərazisində “SOCAR Polymer” layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan İtaliya Respublikasının Prezidenti Sercio Mattarella açılış mərasimində iştirak ediblər.

Prezident İlham Əliyev və Prezident Sercio Mattarella tədbirdə çıxış etmişlər.

Sonra SOCAR-ın prezidenti Rövnəq Abdullayev və “Maire Tecnimont” şirkətinin prezidenti Fabrizio di Amato çıxış etmişlər.

Azərbaycan və İtaliya prezidentlərinə zavod haqqında məlumat verilmişdir.

Dövlət başçıları müəssisənin məhsullarına baxmışlar.

## Neft Fondunun 2017-ci il büdcəsinin gəlir və xərcləri təsdiq olunub

Prezident İlham Əliyev “Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2017-ci il büdcəsinin icrası haqqında” Sərəncam imzalayıb.

Sərəncama görə, Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2017-ci il büdcəsinin icrası, gəlirlər 12 milyard 137 milyon 503,3 min manat, xərclər 11 milyard 15 milyon 537,9 min manat və ya Fondun 2017-ci il büdcəsində nəzərdə tutulana nisbətən gəlirlər üzrə 112,2 faiz, xərclər üzrə 72,3 faiz səviyyəsində olmaqla təsdiq edilib. Həmçinin Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlər (karbohidrogenlərin nəql edilməsi üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (sörveyer), marketinq və sığorta xərcləri çıxılmaq şərtilə, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçisi, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla) 11 milyard 29 milyon 988,9 min manat, karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar sərmayəçilərin müqavilə sahəsindən istifadə üçün ödədikləri akrhesabı ödənişlər 3 milyon 605,5 min manat, neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlər 17 milyon 914,9 min manat, neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə və ya səlahiyyətli dövlət orqanına sərmayəçilərin ödədikləri bonuslar (mükafatlar) 2 milyon 407,6 min manat, Dövlət Neft Fondunun valyuta aktivlərinin idarə edilməsindən əldə edilən gəlirlər 1 milyard 83 milyon 586,4 min manat olub.

Bundan başqa, ötən il Neft Fondundan qaçqınların və məcburi köçkünlərin sosial-məişət və məskunlaşma məsələləri ilə bağlı bəzi tədbirlərin maliyyələşdirilməsinə 104 milyon 999,9 min manat, Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinə transfertlər 6 milyard 100 milyon manat, Samur–Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin maliyyələşdirilməsinə 69 milyon 997,2 min manat, Bakı-Tbilisi-Qars yeni dəmir yolu layihəsinin maliyyələşdirilməsinə 20 milyon 557,4 min manat, “2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsilinə dair Dövlət Proqramı”nın maliyyələşdirilməsinə 17 milyon 9,7 min manat, makroiqtisadi sabitliyin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Mərkəzi Bankına transfertlər 3 milyard 949 milyon 484,8 min manat, Türkiyə Respublikasında “Star” neft emalı kompleksinin tikintisi layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsinə 735 milyon 422,2 min manat, Azərbaycan Respublikası Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərclərə 18 milyon 66,7 min manat yönəldilib.

# AXC DÖVRÜNDƏ MƏTBUAT

"Azərbaycan Xalq Cümhuriyyəti İli" 100

**MƏTBUAT HAQQINDA NİZAMNAMƏ** Azərbaycan Xalq Cümhuriyyəti dövründə mətbuat məsələlərini tənzimləyən sənəd olaraq, 1919-cu il oktyabrın 30-da parlament tərəfindən qəbul olunmuşdu. Hökumətin 1919-cu il 30 aprel tarixli qərarına əsasən, nizamnamə layihəsini hazırlamaq Ədliyyə Nazirliyinə tapşırılmışdı. Lakin 1919-cu il iyunun 20-də hökumət Daxili İşlər Nazirliyinin təqdim etdiyi qanun layihəsini bəyəndi və onu parlamentin müzakirəsinə çıxardı. Nizamnamə söz və mətbuat azadlığı prinsiplərinə əsaslanırdı. Sənəddə deyilirdi ki, insan fəaliyyətinin hər bir sahəsi kimi, mətbuat da azadlıqla anarxiya arasında sərhədi müəyyən edən qanunlara tabe olmalıdır.

Layihənin parlamentdə hər üç oxunuşu qızğın müzakirələrlə keçdi. «Hümmət» partiyası və sosialist fraksiyası layihənin əleyhinə çıxır və bildirirdilər ki, mətbuatı heç bir qanunla məhdudlaşdırmaq olmaz, Nizamnamə demokratiya və müstəqil dövlətçilik prinsiplərinə ziddir. Maddələrin ayrı-ayrılıqda müzakirəsi zamanı mətbuata ümumi nəzarət və rəhbərlik haqqında, redaktorun təbəəliyi, təhsili, yaş senzi, mətbəə yaradılmasına icazə verilməsi barədə maddələr geniş diskussiya doğurdu. İclasların birində bəzi bəndlərin qəbul olunması ilə razılaşmayan sosialistlər salonu nümayişkaranə tərk etmişdilər.

Mətbuat haqqında Nizamnamə oktyabrın 23-dən 30-dək parlamentin 87-90-cı iclaslarında müzakirə edildi və üçüncü oxunuşda 1 deputat bitərəf qalmaqla, 21 səsə qarşı 28 səslə qəbul olundu. Nizamnaməyə əsasən, mətbəə açmaq, çap məhsullarını nəşr etmək, buraxmaq və satmaq üçün hökumətin heç bir icazəsi tələb edilmirdi. Yetkinlik yaşına çatmış hər bir vətəndaş mətbu nəşrin məsul redaktoru ola bilərdi. Mətbəə açmaq və ya mətbu nəşr buraxmaq istəyənlər mətbuat işləri üzrə baş müfəttişə bu barədə müəyyən edilmiş formada ərizə verməli idilər.

Nizamnamənin bir sıra maddələrini pozmaqda təqsirli bilinən naşir, mətbəə sahibi və redaktor pulla cərimə ödəməli və ya həbs cəzasına məhkum edilməli idi. Nizamnaməyə mətbuat işləri üzrə baş müfəttiş ştatı əlavə olunmuşdu.



"Əkinçi" qəzeti

**"ƏKİNÇİ"** - Azərbaycanda ilk milli qəzet. 1875-77-ci illərdə Bakıda (iki həftədən bir) nəşr edilmişdir. İlk nömrəsi 1875-ci il iyulun 22-də çıxmışdır. Cəmi 56 nömrə (1875-ci ildə12, 1876-cı ildə24, 1877-ci ildə20) buraxılmışdır. Qəzetin 1877-ci il nəşrinə kiçik formatlı beş əlavə nüsxə də çıxmışdır (№ 1, 6, 7, 13, 15). Azərbaycanda peşəkar dövri mətbuatın başlanğıcı sayılan «Əkinçi»nin banisi, redaktoru, naşiri, korrektoru, bəzən hətta mürəttibi Həsən bəy Zərdabi olmuşdur. Qəzetdə 1200-ə qədər məqalə, məktub, xəbər, felyeton, şeir, redaksiya qeydi və s.verilmişdir. Maarifçi-demokratik ideyaların carçısı və tribunası olan "Əkinçi"nin ətrafında toplanmış qabaqcıl ziyalılar - M.F.Axundzadə, onun davamçıları N.Vəzirov, S.Ə.Şirvani, Ə.Gorani (Adıgözəlov), Əhsənül-Qəvaid, Ə.Heydəri, Məhbus Dərbəndi və b. mürtəcə və mühafizəkar qüvvələr, cəhalət, nadanlıq, gerilik, köhnəlmiş adət-ənənələr, çarizm və yerli feodal istismarı əleyhinə, elm, maarif və mədəniyyətin tərəqqisi uğrunda ardıcıl mübarizə aparmışlar. "Əkinçi"nin Azərbaycan mədəniyyəti tarixindəki mühüm xidmətlərindən biri maarifçi realist ədəbiyyat və incəsənətin inkişafı uğrunda mübarizə aparmasıdır.

"Əkinçi"nin nəşri Azərbaycan dilinin saflığı və zənginləşməsi yolunda mühüm hadisə olmuşdur. Mürtəce qüvvələrin arasıkəsilməz hücumlarına, senzuranın təqiblərinə məruz qalan qəzetin nəşri 1877-ci ilin sentyabrında dayandı. «Əkinçi» Azərbaycan ictimai, elmi və ədəbi-bədii fikri tarixində, XIX ərsin sonu - XX əsrin əvvəllərində milli ziyalılığın və milli azadlıq ideyalarının formalaşmasında, Azərbaycan Xalq Cümhuriyyəti liderlərinin və ideoloqlarının nəzəri görüşlərinin əsasını təşkil edən Azərbaycançılıq ideologiyasının təşəkkülündə və inkişafında mühüm rol oynamışdır. "Əkinçi"nin nəşri milli istiqlala doğru gedən yolda mühüm hadisə idi. 1979-cu ildə Bakıda "Əkinçi"nin tam mətni kitab halında (ərəb əlifbası ilə) buraxılmışdır.

**«KASPİ» -** ictimai-siyasi, ədəbi qəzet. 1881-ci ilin yanvarından 1919-cu ilin martınadək Bakıda rus dilində nəşr olunmuşdur. 10065 nömrəsi çıxmışdır. İlk 28 nömrəsi həftədə iki dəfə, 1881-ci ilin iyulundan həftədə 3 dəfə, 1884-cü ildən isə gündəlik çıxmışdır. «Kaspi»nin yaradılması ideyası «Bakinskiye izvestiya» qəzetinin redaktoru V.V.Kuzminə məxsus idi. Müxtəlif vaxtlarda qəzetin redaktorları və naşirləri V.Kuzmin, V.Liçkus-Xomutov, Əlimərdan bəy Topçubaşov, Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə və b. olmuşlar. 1897-ci ildə «Kaspi»ni Hacı Zeynalabdin Tağıyev almış və qəzetin redaktorluğunu Ə.Topçubaşova həvalə etmişdir.

H.Z.Tağıyev milli ziyalıları qəzetin ətrafına toplayırdı. Rusca çıxmasına baxmayaraq, 90-cı illərdən etibarən «Kaspi»nin səhifələrində milli məfkurə məsələləri geniş yer aldı. «Kaspi» Ə.Topçubaşovun, habelə sonralar Ə.Hüseynzadənin, H.Zərdabinin redaktorluğu dövründə rusdilli, milli düşüncəli mətbuat orqanına, milli ideyanm başlıca müzakirə mərkəzlərindən birinə çevrildi. Mütərəqqi, demokratik Azərbaycan ziyalılarının görkəmli nümayəndələri - H.Zərdabi, F.Köçərli, M.Mahmudbəyov, Ə.A-




ğayev (Ağa oğlu), M.Şahtaxtinski, C.Məmmədquluzadə və b. «Kaspi» ilə əməkdaşlıq edirdilər. Qəzetin səhifələrində Azərbaycanın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələri işıqlandırılırdı.

1918-ci ilin martında bolşevik-daşnak quldurlarının Bakıda azərbaycanlılara qarşı törətdiyi soyqırımı zamanı «Kaspi» qəzetinin mətbəəsi də yandırılmışdı.

* * * *

**«ŞƏRQİ-RUS» -** Tiflisdə Azərbaycan dilində həftədə üç dəfə çıxmış, ictimai-siyasi, iqtisadi, elmi-ədəbi qəzet. İlk nömrəsi 1903-cü il martın 30-da, sonuncusu 1905-ci il yanvarın 15-də (cəmi 392 nömrə; 1905-ci ilin əvvəlində həm də Bakıda «Şərqi-Rus»un teleqramları» adlı axşam xəbərlərinin bir neçə nömrəsi) çıxmışdır. Naşiri və redaktoru M.Şahtaxtlı, son 45 nömrəsinin redaktoru isə C.Məmmədquluzadə idi. Qəzetdə dünyəvi elmlər, ana dili, qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər öz əksini tapırdı. L.Tolstoydan Azərbaycan dilinə ilk tərcümələr bu qəzetdə verilmişdir, «Şərqi-Rus» qəzeti C.Məmmədquluzadə, M.Ə.Sabir, A.Səhhət, Ö.F.Nemanzadə, H.Cavid. M.S.Ordubadi. Ə.Qəmküsar, Ə.Nəzmi kimi görkəmli maarifçiləri ətrafında birləşdirmişdi. Bu yaradıcı heyət Azərbaycanda mətbuatın yeni inkişaf mərhələsinin başlanmasına («Molla Nəsrəddin») zəmin yaratdı.

**«HÜMMƏT»** - Azərbaycan dilində ilk qeyri-leqal qəzet, sosial-demokrat «Hümmət» təşkilatının orqanı. 1904-cü ilin sonlarından 1905-ci ilin fevralına qədər Bakıda nəşr olunmuşdur. Cəmi 6 nömrəsi çıxmışdır. «Hümmət»in səhifələrində inqilabi ideyalar yayılırdı. Qəzet 1905-ci il fevralın ortalarında «zərərli istiqamətinə görə» polis tərəfindən bağlandı, bəzi əməkdaşları isə həbs edildi. 1906-cı ilin dekabrında "hümmət"çilər «İrşad» mətbəəsində Mehdi bəy Hacınskinin adına 1907-ci ilin martına qədər çıxmış «Təkamül» qəzetinin buraxılmasına icazə ala bildilər. Elə həmin ilin avqustundan sentyabrınadək "hümmət"çilər «Yoldaş» qəzetini nəşr etdirdilər. Bu qəzetlər, əslində, "Hümmət"in varisi və ideya davamçıları idi. Qəzet 1917-ci il iyulun 3-də «Hümmət» təşkilatının orqanı kimi yenidən nəşrə başladı. Ancaq bu zaman M.Ə.Rəsulzadənin başçılıq etdiyi bir qrup ziyalı artıq «Hümmət» təşkilatından uzaqlaşmışdılar.

Bu zaman "Hümmət"in redaktoru Nəriman Nərimanov idi.

"Hümmət"in səhifələrində, əsasən, fəhlələri sosialist inqilabına səsləyən məqalələr dərc edilirdi. Bakıda sovet hakimiyyəti qurulduqdan sonra qəzet daşnak-bolşeviklərin rəhbərlik etdiyi Bakı Xalq Komissarları Sovetinin tədbirlərini işıqlandırmışdır. 1918-ci il iyulun 31-də Bakı Xalq Komissarları Sovetinin ("Bakı kommunası") süqut etməsi ilə "Hümmət"in nəşri dayandırıldı. Qəzet 1919-cu ilin mayından 1920-ci ilin mayına qədər Həştərxanda çap olunmuşdur. Bu müddət ərzində "Hümmət"in cəmi 44 nömrəsi çıxmışdır.

* * * *

**«YENİ HƏQİQƏT» -** gündəlik qəzet. 1911-ci ildə Bakıda nəşr olunmuşdur. İlk nömrəsi yanvarın 21-də, sonuncu, 44-cü nömrəsi martın 18-də çıxmışdır. «Günəş» və «Həqiqət» qəzetlərinin davamı idi. «Yeni həqiqət»də müxtəlif siyasi-inzibati regionların həyatına dair informasiyalar, beynəlxalq siyasətə, dini məsələlərə dair məqalələr, bədii ədəbiyyat nümunələri dərc olunurdu. Qəzetin naşiri və baş redaktoru Oruc Orucov, əsas müəllifləri Əhməd bəy Ağayev (Ağaoğlu), Mirzə Ələkbər Sabir, Əliqulu Qəmküsar və b. idi.

Avropa dövlətlərinin Şərqdə müstəmləkəçilik siyasətinin tənqidi, dünya müsəlmanlarının birliyi, «İttihadi-islam» ideyasının təbliği «Yeni həqiqət»in əsas ideya istiqamətini təşkil edirdi. Buradakı yazılarda imperialist dövlətlərin, o cümlədən Rusiyanın müsəlman xalqlarına qarşı yürütdükləri təcavüzkarlıq siyasəti ifşa olunurdu. Məhz buna görə də 1911-ci il martın 19-da «Yeni həqiqət»in nəşri dayandırıldı, naşir-redaktoru Oruc Orucov həbs olunaraq Rusiyanın daxili quberniyalarına sürgün edildi.

Qısa müddətdə çıxmasına baxmayaraq, «Yeni həqiqət» milli, ictimai-siyasi şüurun, istiqlal ideyalarının oyanışında müəyyən rol oynamışdır.

* * * *

**«İQBAL»** - gündəlik qəzet. 1912-15-ci illərdə Bakıda Azərbaycan dilində nəşr olunmuşdur.1023 nömrəsi çıxmışdır. "İqbal"ın əsas müəllifləri Sənətulla Eynullayev - İbrahimov, Seyid Hüseyn, Məhəmməd Əmin Rəsulzadə, Hacı İbrahim Qasımov, Nəriman Nərimanov, Məhəmməd Hadi, Abdulla Şaiq, Abbas Səhhət, Əli Nəzmi, Xəlil İbrahim, Əkbər Əkbərov və b. idi.

Qəzetin məqsəd və məramı onun birinci sayında dərc edilmiş baş məqalədə şərh olunmuşdur. Müstəmləkəçi imperialist dövlətlərin Yaxın və Orta Şərqdə törətdikləri təxribatların, Rusiya imperiyasının müstəmləkəçilik və ruslaşdırma siyasətinin tənqidi, milli dirçəliş ideyalarının təbliği, milli ədəbiyyatın inkişafı, ana dilinin müstəqilliyi və yad təsirlərdən təmizlənməsi, qadın azadlığı, maarifin xalqa yaxınlaşması və milliləşməsi "İqbal"ın toxunduğu əsas mövzular idi. "İqbal"ın naşir və baş mühərrirləri, müəlliflərinin böyük əksəriyyəti sonralar Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları oldular.

* * * *

**«AÇIQ SÖZ»** - Bakıda nəşr olunmuş gündəlik ictimai-siyasi, ədəbi qəzet. «İqbal» (1912-15) qəzetinin davamı olub, «Müsavat» partiyasının rəsmi orqanına çevrilmişdi. «Açıq söz» qəzetinin ilk sayı 1915-ci il oktyabrın 2-də «İqdam» mətbəəsində çap edilmişdir. Qəzetin sonuncu sayının nə vaxt çıxması barədə fikirlər müxtəlifdir.

Bəzi mənbələrdə («Azərbaycanda dövri mətbuat (1832-1920)», B., 1965) qəzetin 1918-ci il martın 18-də sonuncu - 704-cü sayının çıxdığı göstərilsə də, «Açıq söz» 1918-ci il 6 oktyabr tarixli 718-ci sayında özündən asılı olmayan səbəblərə görə fasiləyə yol verdiyi üçün oxuculardan üzr istəyərək yazırdı: ***«Qanlı mart hadisəsi zamanı mətbəəmiz fəhlə şurası və erməni qoşunları tərəfindən talan edilib yandırıldığı üçün qəzetimiz dayandırılmağa məcbur olunmuşdu».***



"Kaspi" qəzetinin mətbəəsində iş prosesi

«Azərbaycan dövri mətbuatı. 1832-1920» kitabında (1987) «Açıq söz» qəzetinin 724 sayının çıxdığı göstərilir. Digər məlumatlara görə, qəzetin 750 sayı işıq üzü görmüşdür.

«Açıq söz» qəzetinin naşirləri və redaktorları müxtəlif vaxtlarda Məhəmməd Əmin *Rəsulzadə,* Məmmədəli *Rəsul-zadə,* Üzeyir bəy *Hacıbəyli,* Orac, Qənbər və Abuzər *Orucov qardaşları* olmuşlar.

* * * *

**«BƏSİRƏT»** - Bakıda Azərbaycan dilində nəşr edilmiş, həftəlik və bayram günlərində dərc olunmuş siyasi, ictimai, iqtisadi və ədəbi qəzet. İlk sayı 1914-cü il aprelin 12-də, son sayı 1920-ci il mayın 15-də çıxmışdır. 1918-ci ilin mart-sentyabr aylarında nəşr edilməmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə nəşri bərpa olunmuş, üç nömrəsi sovet hakimiyyəti dövründə (cəmi 286 nömrə) çıxmışdır. Baş redaktoru Hacı İbrahim *Qasımov,* naşiri Qulamrza Şərifzadə idi. "Bəsirətin mövzu dairəsi geniş idi. Burada XX əsrin 10-cu illərinin mühüm hadisələri əksini tapmış, xüsusilə bolşevik daşnakların müsəlman-türk əhalisinə qarşı 1918-ci il mart qırğını zamanı törətdikləri görünməmiş cinayət və vəhşiliklər haqqında məlumatlar verilmiş, bu yazılarda Şaumyan mart qırğınlarının "məşhur qəhrəmanı" adlandırılmışdır. 1918-20-ci illərdə çıxan bu yeganə müstəqil, bitərəf qəzetin səhifələrində Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin təsviri geniş işıqlandırılırdı. "Bəsirət"də Azərbaycan qəzalarında vəziyyət, Rusiya, İran, Türkiyə, Gürcüstan və Ermənistanda baş verən siyasi proseslər, Bakının mədəni həyatı ilə bağlı yazılar dərc olunmuşdur.



İsmayıl bəy Qaspralı, Həsən bəy Zərdabi və Əlimərdan bəy Topçubaşov (Bakı, 1907)

* * * *

**«MUSULMANSKİYE İZVESTİYA» -** Bakı müsəlman ictimai təşkilatları komitəsinin mətbu orqanı. «Kaspi» qəzetinin redaksiyası ilə komitənin mətbuat orqanın nəşri haqqında razılığa əsasən, qəzetin 30 aprel 1917-ci il 95-ci sayından etibarən 4-cü səhifəsi «Bakı müsəlman ictimai təşkilatları komitəsinin xəbərləri» adı ilə çıxmağa başlamışdı. İyunun 9-dan etibarən «Xəbərlər»in müvəqqəti redaktoru Ceyhun bəy Hacıbəyli idi. Burada millətlərin öz müqəddəratını təyin etməsi problemi başlıca məsələ kimi işıqlandırılırdı. «Xəbərlər»də «Hazırkı vəzifələrə dair», «Milli komitədə», «Biz necə işləməliyik», «Vəzifələrimiz» başlıqları altında materiallar dərc edilirdi. Qəzetdə müntəzəm olaraq Şimali Qafqaz, Türküstan, Volqaboyu və digər türk diyarlarından xəbərlər dərc edilir, Rusiya xalqları arasında müsəlman və türk həmrəyliyi, Rusiyanın və dünyanın türk və müsəlman cəmiyyətlərinin quruluşu haqqında, «Müsavat» partiyasının təsir dairəsinin genişləndiyi, hətta Stavropolda öz şöbəsini yaratdığı barədə məlumatlar verilirdi. Qəzetdə müsəlman memarlıq abidələri haqqında məqalələr dərc edilir, Bakıdakı Şirvanşahlar sarayının tarixi əhəmiyyəti, çar hakimiyyətinin ona etinasız münasibət bəslədiyi göstərilirdi. «Xəbərlər» Azərbaycanın rusdilli ziyalılarında və bütövlükdə, Azərbaycan xalqının siyasi şüurunun formalaşmasında əhəmiyyətli rol oynamışdır.

* * * *

**"İTTİHAD"** - siyasi, ictimai, ədəbi qəzet. Ceyhun bəy Hacıbəyli tərəfindən təsis edilmiş və ilk nömrəsi 1917-ci il dekabrın 4-də onun baş redaktorluğu ilə çıxmışdır. "Güc ittihaddadır" şüarı ilə çap olunurdu.1918-ci ilin əvvəllərində C.Hacıbəyli "Azərbaycan" qəzetinin rəhbərliyinə dəvət olunandan sonra "İttihad" 59-cu nömrəsindən etibarən "Rusiyada müsəlmanlıq" fırqəsinin rəsmi orqanına çevrilmişdi. Daşnakların azərbaycanlılara qarşı törətdikləri *Mart soyqırımı (1918)* nəticəsində nəşri müvəqqəti olaraq dayandırılan qəzet 1919-cu ilin fevralından partiya orqanı kimi yenidən çap olunmağa başladı. "İttihad"ın 1918-ci il və 1919-cu ilin aprelinə qədərki nömrələri redaksiya heyətinin (heyəti-təhririyyə) rəhbərliyi ilə çıxırdı. 1919-cu ilin aprelində isə qəzetə "Acaralı Camal" təxəllüsü ilə "Qafqaz İttihad Firqəsi" Mərkəzi Komitəsinin üzvü Camal əfəndi Nakaşidze baş mühərrir təyin olundu. 1920-ci ilin yanvarından isə "Qafqaz İttihad Firqəsi"nin ikinci qurultayının qərarına əsasən, partiyanın sədri Qara bəy *Qarabəyli* rəhbərlik etməyə başladı. İlk vaxtlar gündəlik çıxan "İttihad" 1919-20-ci illərdə ayda yalnız bir-iki dəfə çap olunurdu. Aprel işğalından (1920) sonra qəzetin nəşri dayandırılmışdır.

* * * *

**«İSTİQLAL»** - həftəlik qəzet. Türk Ədəmi-Mərkəziyyət firqəsi «Müsavat"ın orqanı. Bakıda nəşr olunmuşdur. İlk nömrəsi 1919-cu il fevralın 4-də, son nömrəsi 1920-ci il aprelin 23-də çıxmışdır. 42 nömrəsi buraxılmışdır. Qəzetin məsləki, məqsəd və vəzifəsi Məhəmməd Əmin Rəsulzadənin birinci nömrədə çap olunmuş «İstiqlal» adlı baş məqaləsində şərh olunmuşdu. «Heyəti-təhririyyə» (redaksiya heyəti) tərəfindən idarə edilən qəzet «Turan» mətbəəsində çap olunurdu.




**«İSTİQLAL»** - Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Vətəni tərk etməyə məcbur olan Azərbaycan siyasi mühacirlərinin 1932-34-cü illərdə Almaniyanın Berlin şəhərində Azərbaycan dilində nəşr etdirdiyi ictimai-siyasi qəzet. İlk nömrəsi 1932-ci il yanvarın 10-da buraxılmışdı. «İnsanlara hürriyyət! Millətlərə istiqlal!» şüarı ilə nəşr olunan qəzetin redaktoru Məhəmməd Əmin Rəsulzadə idi.

Sovet hökumətinin dəfələrlə təkidli tələbləri nəticəsində Türkiyə Cümhuriyyəti hökuməti öz ərazisində fəaliyyət göstərən Azərbaycan siyasi mühacirətinə qəzet və jurnalların nəşrini qadağan etməyə məcbur olduğundan Azərbaycan mühacirətinin rəhbəri M.Ə.Rəsulzadə bu məqsədlə fəaliyyət mərkəzini Almaniyaya-Berlinə köçürmüşdü.

* * * *

**«NAŞ QOLOS» -** gündəlik ədəbi, ictimai-siyasi, menşevik qəzeti.

# AXC DÖVRÜNDƏ MƏTBUAT



1-ci nömrəsi 1918-ci il yanvarın 6-da, sonuncu (59-cu) nömrəsi həmin ilin martında Bakıda çıxmışdır. Qəzet redaksiya heyəti tərəfindən buraxılırdı. Erməni-daşnak silahlı dəstələrinin Bakıda Azərbaycan xalqına qarşı törətdiyi Mart soyqırımı (1918) günlərində «Naş qolos» şəhərdəki vəziyyəti geniş işıqlandırmışdı.

**«AZƏRBAYCAN»** - qəzet, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin orqanı. Gəncədə, sonralar isə Bakıda Azərbaycan və rus dillərində nəşr olunmuşdur. 4 nömrəsi Gəncədə, sonrakı nömrələri isə Bakıda çıxmışdır. Qəzetin ilk nömrəsi 1918-ci il sentyabrın 15-də Gəncə qubernatorunun mətbəəsində çap edilmişdir. Qəzetin birinci nömrəsində «Heyəti-təhriyyə» («Redaksiya heyəti») imzası ilə böyük bir yazı verilmişdir.

«Azərbaycan» qəzetinin Bakıda Azərbaycan dilində nəşr olunmuş beşinci nömrəsi 1918-ci il oktyabrın 3-də, rus dilində isə oktyabrın 7-də buraxılmışdır. Bu nömrədən etibarən qəzetin adı altında ***«Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir»*** sözləri yazılmağa başlamışdır. Qəzet Azərbaycan dilində çıxan altıncı nömrəsindən, rus dilində isə beşinci nömrəsindən «mühərrirləri: Ceyhun bəy Hacıbəyli və Şəfi bəy Rüstəmbəyli» imzaları ilə buraxılmışdır. Həmin il noyabrın 28-dən isə Azərbaycan dilində olan nömrələr Ceyhun bəy Hacıbəylinin, rus dilində olan nömrələr Şəfi bəy Rüstəmbəylinin redaktorluğu ilə nəşr edilmişdir.

1918-ci il dekabrın 31-nə qədər «Azərbaycan» qəzetinin Azərbaycan dilində 75 nömrəsi, rus dilində isə 70 nömrəsi işıq üzü görmüşdür. 1919-cu il yanvarın 16-da buraxılmış 89-cu nömrəsindən etibarən «Azərbaycan» qəzetini Üzeyir bəy Hacıbəyli imzalamışdır. Həmin il iyulun 4-də çapdan çıxmış 216-cı nömrəsindən qəzetə «müvəqqəti müdir Xəlil İbrahim» rəhbərlik etmişdir. 1919-cu il sentyabrın 3-dən 1920-ci il aprelin 28-nə kimi Üzeyir bəy Hacıbəyli yenidən qəzetin redaktoru olmuşdur. «Azərbaycan» qəzetinin 1918-ci il sentyabrın 15-dən 1919-cu il dekabrın 31-nə qədər 358 nömrəsi, 1920-ci il yanvarın 1-dən aprelin 28-nə qədər isə 85 nömrəsi çap olunmuşdur. Bütövlükdə, 1918-20-ci illər arasında qəzetin cəmi 443 nömrəsi çıxmışdır.

«Azərbaycan» qəzeti o zaman öz istiqlalına qovuşmuş Azərbaycan xalqının milli oyanışında çox mühüm rol oynamışdır.

* * * *

**"AZƏRBAYCAN CÜMHURİYYƏTİ HÖKUMƏTİNİN XƏBƏRLƏRİ»** - qəzet, Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin rəsmi orqanı. «Azərbaycan Cümhuriyyəti hökumətinin xəbərləri»nin nəşrinə başlamaq haqqında qərar 1918-ci il iyulun 3-də qəbul edilmişdir. İlk nömrəsi 1919-cu il yanvarın 25-də çıxmışdır. 1919-cu il iyulun 19-dan həftədə bir, 1920-ci il yanvarın 1-dən isə həftədə iki nömrəsi Azərbaycan və rus dillərində buraxılırdı. «Xəbərlər»də, əsasən, hökumətin qərarları, nazirliklərin sərəncam, əmr və təlimatları, ayrı-ayrı şəxslərin vəzifəyə təyin və ya azad edilmələri barədə məlumatlar, elanlar və s. dərc edilirdi.

* * * *

**AZƏRBAYCAN TELEQRAF AGENTLİYİ (AZƏRTAC)** - Azərbaycan Xalq Cümhuriyyətinin dövlət informasiya orqanı. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 1919-cu il 3 mart tarixli qərarı ilə yaradılmışdır. Həmin qərara əsasən, əvvəllər Maarif Nazirliyi yanında fəaliyyət göstərirdi. Sonra Poçt və Teleqraf Nazirliyinin sərəncamına verilmiş, yalnız 1919-cu ilin avqustundan müstəqil fəaliyyətə başlamışdır. Hökumət 1920-ci il fevralın 2-də poçt və teleqraf nazirinin təqdimatı ilə Azərbaycan Teleqraf Agentliyinin yaradılması haqqında yeni qərar qəbul etmişdir. AZƏRTAC 1920-ci il martın 1-dən Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası yanında müstəqil quruma çevrilmişdi.Agentliyin axırıncı xəbərləri 1920-ci il 28 aprel tarixli qəzetlərdə verilmişdi. *Aprel işğalından (1920)* sonra AZƏRTAC Azərbaycan Mətbuat Mərkəzinin tərkibində Rusiya Teleqraf Agentliyi Qafqaz Ölkə Müvəkkilliyinin şöbəsi kimi fəaliyyət göstərmiş, Azərbaycan SSR Xalq Komissarları Sovetinin qərarı ilə 1921-ci ildən Azərbaycan Teleqraf Agentliyinə (Azər.TA) çevrilmişdi. 1972-ci ildən «Azərinform» adlanırdı. Sovet İttifaqı Teleqraf Agentliyinin (SİTA) tərkibinə daxil idi. Azərbaycan yenidən dövlət müstəqilliyi qazandıqdan sonra Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 18 dekabr tarixli sərəncamı ilə bu qurumun tarixi adı (AZƏRTAC) özünə qaytarılmışdır. Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 3 mart tarixli fərmanı ilə ənənəvi adı saxlanılmaqla, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Teleqraf Agentliyinə, 2000-ci il 17 yanvar tarixli fərmanla isə müstəqil Azərbaycan Dövlət Teleqraf Agentliyinə çevrilmişdir.

* * * *

**"XALQ SÖZÜ"** - gündəlik qəzet. İlk nömrəsi 1919-cu il iyunun 17-də çıxmışdır. Üçüncü nömrəsindən sonra fəaliyyəti dayanmışdır. Əsas müəllifləri Seyid Hüseyn, Qədir Hüseynzadə, Məmmədəli Sidqi və Mirzə Bala Məmmədzadə idi.

**«MOLLA NƏSRƏDDİN» -** həftəlik, illüstrasiyalı ilk Azərbaycan




satirik jurnalı. Birinci nömrəsi 1906-cı il aprelin 7-də (20-də) Tiflisdə çapdan çıxmışdır. 1906-17-ci illərdə Tiflisdə, 1921-ci ildə Təbrizdə, 1922-31-ci illərdə Bakıda nəşr olunmuşdur. Redaktoru və naşiri Cəlil *Məmmədquluzadə* idi. 25 il ərzində 748 nömrəsi (340-ı Tiflisdə, 8-i Təbrizdə, 400-ü Bakıda) çıxmışdır. Mütərəqqi ideyaların carçısı olan «Molla Nəsrəddin» zəhmətkeş xalq və demokratiya cəbhəsində duraraq, azadlıq düşmənlərini - çar mütləqiyyətini, hakim təbəqələrin ağalığını, imperializmin müstəmləkəçilik siyasətini, geriliyi, mövhumat, cəhalət və xurafatı amansız satira atəşinə tutmuş, Azərbaycan xalqının milli oyanışında, əhalinin geniş təbəqələri içərisində istiqlal ideyalarının yayılmasında mühüm rol oynamışdır. Jurnal, eyni zamanda, maarif və mədəniyyətin tərəqqisi, qadın azadlığı, Azərbaycan dilinin saflığı uğrunda ardıcıl mübarizə aparırdı. Kəskin və cəsarətli tənqidi çıxışlarına, «acı həqiqətləri» söylədiyinə görə daim hücum və təqiblərə məruz qalan jurnalm nəşri çar senzurası tərəfindən tez-tez dayandırılmış, bir sıra nömrələri müsadirə olunmuş, redaktoru dəfələrlə məhkəmə məsuliyyətinə cəlb olunmuş, cərimə edilmişdir. Lakin bütün təqib və təzyiqlərə baxmayaraq, «Molla Nəsrəddin»in haqq səsi çox keçmədən şimallı-cənublu bütün Azərbaycanın, Qafqazın hüdudlarını aşıb Rusiyada, Yaxın və Orta Şərqdə eşidilmişdi. Jurnalın Tiflis, Bakı, İrəvan, Təbriz, Naxçıvan, Gəncə, Şamaxı, Şəki, Dərbəndlə yanaşı, Orta Asiyada, Krımda, Kazan, Ufa, Həştərxan, Orenburq, Tehran, Ərzurum, İstanbul, Qahirə, Bombey, Kəlkətə və s. şəhərlərdə də çoxlu oxucusu var idi. C.Məmmədquluzadənin dediyi kimi, zəmanənin yaratdığı «Molla Nəsrəddin» dövrünün mühüm ictimai-siyasi hadisələrinə səs verir, onları inqilabi-demokratik baxımdan şərh edirdi. «Molla Nəsrəddin» İran, Türkiyə və Şərq ölkələrində genişlənən milli azadlıq hərəkatını diqqətlə izləyir, beynəlxalq irtica qüvvələrini, yerli istibdadı ifşa edirdi. Sərtarxan, Bağırxan, Xiyabani kimi azadlıq mücahidlərinin başçılığı ilə Cənubi Azərbaycanda və bütün İranda gedən milli-demokratik mübarizə haqqında jurnalın yazıları və rəsmləri yüksək vətənpərvərlik nümunələri idi. «Molla Nəsrəddin» Azərbaycan xalqının mütərəqqi qüvvələrini, demokratik ziyalıları öz ətrafında toplamış, Azərbaycan Xalq Cümhuriyyətinin meydana gəlməsilə nəticələnən milli azadlıq ideyalarının təbliğində mühüm rol oynamışdır. Jurnalda Ömər Faiq Nemanzadə, Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Əli Nəzmi, Əliqulu Qəmküsar, Məmməd Səid Ordubadi, Mirzəli Möcüz və b. şair, yazıçı və jumalistlər, O.Şmerlinq, İ.Rotter. Əzim Əzimzadə kimi rəssamlar fəaliyyət göstərirdilər. Jurnal 1926-cı ildən «Heyəti-təhririyyə» imzası ilə buraxılmışdır.

«Molla Nəsrəddin»in yalnız Azərbaycanın deyil, eləcə də Yaxın Şərq ölkələrinin ictimai və ədəbi-bədii fikir tarixində müstəsna rolu olmuşdur.

* * * *

**«NEFTYANOYE DELO» -** Bakıda ayda iki dəfə rus dilində nəşr olunan jurnal, *Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının* orqanı. İlk nömrəsi 1899-cu ilin yanvarında, sonuncusu 1920-ci ilin aprelində çıxmışdır. Neft sənayeçilərinin mənafeyini müdafiə etmişdir. «Neftyanoye delo» Azərbaycan Xalq Cümhuriyyətinin siyasi tarixini öyrənmək üçün də qiymətli mənbədir. Jurnalın 1918-20-ci illərdə buraxılmış saylarında neft sənayeçiləri qurultayı şurasının dövlət hakimiyyətinin həyata keçirdiyi tədbirlərə münasibəti ifadə edilmişdir. Rusiyada bolşeviklərin mərkəzi hakimiyyəti ələ keçirməsi jurnalda kəskin pislənirdi. Rusiya burjuaziyası kimi, Bakı burjuaziyası da Sovet hakimiyyətinin yeritdiyi siyasətdən narazı idi. Bakı Xalq Komissarları Sovetinin neft müəssisələrini və Xəzər ticarət donanmasını milliləşdirmək haqqında dekretlərindon sonra jurnal sovet hakimiyyətinə qarşı açıq çıxış etməyə başladı. *«Sentrokaspi diktaturası»* dövründə çıxan nömrəsində isə (9 sentyabr) bolşeviklər 1918-ci ilin martında hakimiyyəti qəsb etməkdə günahlandırılırdılar. Bakı nefti uğrunda mübarizə dövründə ingilislərin neft sənayesini böhrandan çıxaracağına inanan neft sənayeçilərinin milli və dövlətçilik ideallarına biganə mövqeyi jurnalda dərc olunan məqalələrdə əksini tapmışdır. Azərbaycan Xalq Cümhuriyyətinə düşmənçilik mövqeyindən yanaşan jurnal Bakının azad olunması ərəfəsində ingilislərə üstünlük versə də, almanların müdaxiləsinin də əleyhinə olmamışdır. Bununla belə, jurnal Bakıda Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətinin bərqərar olmasını neft sənayeçiləri üçün yeni mərhələnin başlanğıcı kimi səciyyələndirmişdi. Neft sənayesinin milliləşdirilməsinin Fətəli xan Xoyski hökuməti tərəfindən ləğvi təqdir olunsa da, bu sahənin işinə sərt nəzarət qərarı razılıqla qarşılanmamışdı. Neft məhsullarının ixracı probleminin yalnız Rusiya ilə sərbəst mal mübadiləsinin bərpası sayəsində həll edilməsinin mümkünlüyü qeyd olunurdu. Yeni dövlət qurumlarının yaranmasının iqtisadi maraqlara zidd olduğunu göstərən jurnal ümumrusiya bazarında sərbəst əmtəə mübadiləsini müdafiə edir, hökumətin neft məhsullarının ixracına aksiz tətbiqi qanunundan kəskin narazılığını bildirirdi. Jurnalın 1920-ci il aprelin 30-da çıxmış sonuncu nömrəsindəki məqalələrin başlıqları – «Бакинская нефть для советской России ("Bakı nefti Sovet Rusiyası üçün"), «Победу советской России и Бакинский нефтяной экспорт» («Sovet Rusiyasının qələbəsi və Bakı neftinin ixracı») Aprel işğalının (1920) mahiyyətini açmaq baxımından səciyyəvidir.

* * * *

**«FÜYUZAT»** - həftəlik elmi, ədəbi, ictimai-siyasi, şəkilli jurnal. 1906-cı il noyabrın 1-dən, 1907-ci il noyabrın 1-dək Bakıda Azərbaycan dilində nəşr edilmişdir. Cəmi 32 nömrəsi çıxmışdır. «Füyuzat» Hacı Zeynalabdin Tağıyevin vəsaiti ilə nəşr olunurdu. Jurnalın müdiri və baş mühərriri Əli bəy *Hüseynzadə* idi. Redaksiyası H.Z.Tağıyevin Nikolay (indiki İstiqlaliyyət) küçəsindəki evində yerləşir, «Kaspi» mətbəəsində çap olunurdu. Müsəlman-türk vətəndaşlarını maarifləndirib, mədəni səviyyələrini yüksəltmək, ictimai və milli şüurunu oyadıb, dövlətçilik hisslərini qüvvətləndirmək, bu yolla siyasi birliyini yaradıb, xoşbəxt həyata qovuşdurmaq «Füyuzat"ın əsas amalını təşkil edirdi. «Füyuzat»da bədii ədəbiyyat mərkəzi yer tuturdu. Bir il ərzində jurnal 102 şeir, 3 pyes dərc etmiş, romantik ədəbiyyatın yaranmasına qüvvətli təsir göstərmişdir.

Azərbaycan xalqının mədəni üfüqlərini genişləndirmək, dünya ədəbiyyatını təbliğ etməklə milli ədəbiyyatın inkişafına yeni istiqamət vermək "Füyuzat"ın fəaliyyətində önəmli yer tuturdu. «Füyuzat» Azərbaycanda milli istiqlal ideyalarının formalaşmasında mühüm rol oynamışdır.

* * * *

**«YENİ FÜYUZAT» -** Bakıda Azərbaycan dilində nəşr edilən həftəlik illüstrasiyalı jurnal (1910-11). *«Füyuzat»* (1906-07) ənənələrinin davamçısı olan jurnalın naşiri və məsul müdiri Əlipaşa Hüseynzadə (Səbur), baş mühərriri Əhməd Kamal Rasim oğlu idi. İslam birliyi, milli istiqlaliyyət, siyasi dirçəliş, vətənpərvərlik ideyalarının təbliği, şah, sultan istibdadının, Rusiya və İngiltərə dövlətlərinin Yaxm və Orta Şərq ölkələrində - Misirdə, Ərəbistanda, İranda, Türkiyədə, Əfqanıstanda qanlı müstəmləkəçilik siyasətinin tənqidi jurnalın əsas ideya istiqamətini təşkil edirdi.

«Yeni füyuzat"da islam birliyinin təbliği xüsusilə güclü idi. İmperialist dövlətlərin Şərqdə müstəmləkəçilik siyasətinin tənqidi jandarm idarəsinin diqqətini cəlb etmiş, 1911-ci il martın 19-da naşirin və baş redaktorun evində axtarış aparılmış, naşir və məsul müdir Əlipaşa Hüseynzadə (Səbur) Həştərxana sürgün olunmuş, baş redaktor Əhməd Kamal isə Rusiya hüdudlarından çıxarılıb, vətəni Türkiyəyə göndərilmiş, bununla da «Yeni füyuzat»ın fəaliyyəti dayandırılmışdır.

* * * *

**«MƏKTƏB»** - demokratik istiqamətli, elmi-ədəbi-bədii jurnal. Bakıda (rəsmən 2 həftədə 1 dəfə) Azərbaycan dilində nəşr olunmuşdur. İlk nömrəsi 1911-ci il 29-da, sonuncusu 1920-ci il martın 21-də (cəmi 95 nömrə) çıxmışdır. Redaktorları *Qafur Rəşad* (həm də naşiri) və Ə.Əfəndizadə olmuşlar. 1-ci nömrəsindən Nəriman Nərimanovun «Əziz balalar!» başlığı ilə uşaqlara müraciəti verilmişdir.

«Məktəb» jurnalının səhifələrində milli dirçəliş, istiqlal ideyası, ana dilinə bağlılıq, vətənə məhəbbət, övladlıq borcu, ədəb-ərkan, yoldaşlıq, qayğıkeşlik, səmimi münasibət mövzularında yazılar və kiçik uşaq hekayələri, eyni zamanda, xalqın müdrikliyindən, mübariz ruhundan bəhs edən folklor nümunələri, xüsusilə nağıllar, lətifələr, oyun və əyləncələr çap olunurdu. Jurnalda Həsən bəy *Zərdabi,* Mirzə Ələkbər *Sabir,* Süleyman *Sani Axundov, Üzeyir bəy Hacıbəyli, Abdulla Şaiq, Abbas Səhhət, Cəfər Cabbarlı və* b.-nın yazıları ilə yanaşı, xarici dillərdən tərcümələr də dərc edilmişdir. «Məktəb» pedaqoji biliyin və dünyagörüşünün genişlənməsində, maarifə, elmə həvəsin artmasında, uşaqlara yüksək mənəvi-əxlaqi keyfiyyətlərin aşılanmasında əhəmiyyətli rol oynamışdır.

* * * *

**«ŞEYPUR» -** Bakıda Azərbaycan dilində nəşr olunan həftəlik satirik jurnal. İlk sayı 1918-ci il oktyabrın 5-də, sonuncu sayı isə 1919-cu il yanvarın 18-də (cəmi 14 nömrə) çıxmışdır. Redaktoru Məmmədəli Sidqi, naşiri Səməd Mənsur idi. Satirik jurnalistikanın qaydalarına uyğun olaraq, "Şeypur"da publisistik və bədii materiallar üstüörtülü imzalarla dərc edilmişdir. Jurnalda Səməd Mənsurun satirik



şeirləri, əsasən, "Pampuşəli" imzası ilə dərc olunmuşdur. Baş mühərrir Məmmədəli Sidqi isə daha çox «Şeypur» imzası ilə çıxış etmişdir. Jurnalda «Dağlı», «Dağlızadə»(C. Cabbarlı), «Qozqurab bəy» (Əmin Abid), habelə «Yaf-tuməli», «Çalma», «Qoçu Mauzerzadə». «Mömin çinovnik», «Lağlağı», «Müsahib», «Hamınalsuvar» və s. gizli imzalar da işlənmişdir.

Jurnal Azərbaycanın Xalq Cümhuriyyətinin müstəqillik ideallarını təbliğ edir, bu yoldakı əngəlləri, bolşevik-daşnak fitnəkarlıqlarını, Bakı neftini ələ keçirməyə can atan əcnəbi dövlətlər arasındakı çəkişmələri ifşa edirdi.

«Molla Nəsrəddin» jurnalının ənənələrini davam etdirən «Şeypur»-da müxtəlif satirik-yumoristik üsullardan istifadə olunurdu.

* * * *

**«ZƏNBUR»** - Azərbaycan dilində həftəlik illüstrasiyalı satirik jurnal. 1918-ci ilin aprel-noyabr aylarında «Türk nəşriyyat cəmiyyəti» tərəfindən Bakıda nəşr edilmişdir (cəmi 24 nömrə).

«Zənbur» Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin orqanı olub, redaksiya heyəti tərəfindən buraxılırdı. Naşiri 1909-19-cu illərdə çıxmış eyni adlı satira jurnalının sahibi, tibb elmləri doktoru, yazıçı, ictimai xadim Mirzə Əbdülxalıq Axundov, əsas rəssamı Əzim Əzimzadə, beşinci nömrədən «NN» imzalı rəssam, sonralar isə Səfizadəidi. Jurnalda Ələbbas Müznib, Əli Nəzmi, Səməd Mənsur, Hacı Qasım Səyyah, B.Səttar oğluvə b. müəlliflər fəal iştirak edirdilər.

"Zənbur"un əsas mövzusu və tənqid hədəfi dövrün aktual məsələləri, kəskin ictimai-siyasi hadisələri idi. Jurnalda Rusiyanın (Lenin və Kerenskinin timsalında) Azərbaycanı işğal etmək niyyətləri, erməni-daşnak silahlı dəstələrinin Zəngəzurda və Bakıda törətdikləri soyqırımları, beynəlxalq imperializm qüvvələrinin neft Bakısını işğal etmək üçün Azərbaycana müdaxiləsi, dövlət idarələrində köks alıb qalan və milli dövlətçiliyə əngəl olan «nikolay pərəst» və s. mürtəce qüvvələr, habelə dövlət qurumlarındakı özbaşınalıqlar, lovğa nitqlərlə xalqı aldadan nazirlər, «padşah yerişli naçalniklər", "müstəbid çinovniklər", kəndlilərin "qabıqlarını soğan qabığı kimi soyan" pristavlar, şəxsi mənafelərini xalqa xidmətdən üstün tutan parlament üzvləri, külək əsən tərəfə əyilən partiya liderləri, sosialistlər yığcam formalı şeir və publisist yazılarda tənqid edilirdi. "Zənbur" "Molla Nəsrəddin" jurnalının satira ənənələrindən geniş bəhrələnirdi.

**JURNALİSTLƏR VƏ ƏDİBLƏR İTTİFAQI -** Azərbaycan Xalq Cümhuriyyəti dövründə qeyri-hökumət yaradıcılıq birliyi. 1919-cu ilin oktyabrında yaradılmışdı. Həmkarlar İttifaqı səciyyəsi daşıyan qurum milli mənsubiyyətindən asılı olmayaraq, jurnalist və yazıçıları birləşdirirdi. Sədri L.P.Umanski, sədr müavini Xəlil İbrahimov (Xəlil İbrahim), xəzinədarı Xudadat bəy Əzizov idi. Üzeyir Hacıbəyli ittifaqın idarə heyətinin üzvü olmuşdur. Nizamnaməsinə əsasən, bütün mübahisəli məsələlərə təşkilatın nəzdində yaradılmış arbitraj komissiyasında baxılırdı. İttifaq fəal mədəni-maarif və xeyriyyəçilik fəaliyyəti göstərirdi. Belə ki, 1919-cu ilin noyabrında ittifaqın yoxsul üzvləri üçün pul fondu yaradılmış, noyabrın 23-də fondun nəfinə tamaşa göstərilmişdi. Elə həmin vaxt «jurnalist günü»nün keçirilməsi qərara alınmış, Dövlət Teatrında (indiki Azərbaycan Dövlət Opera və Balet Teatırı) tamaşa-bal təşkil edilmiş, jurnalist günü ilə əlaqədar bir günlük qəzet buraxılmışdı. Jurnalistlər və ədiblər ittifaqı Azərbaycanda demokratik mətbuatın inkişafında, Cümhuriyyət ideyalarının, hökumətin həyata keçirdiyi ictimai-siyasi, iqtisadi və sosial-mədəni tədbirlərin işıqlandırılmasında mühüm rol oynamışdır. İttifaq Aprel işğalı (1920) nəticəsində fəaliyyətini dayandırmışdır.

# Tarixin 3-cü ən məhsuldar Dünya Çempionatı



Rusiyada təşkil olunan futbol üzrə dünya çempionatı məhsuldarlığı ilə seçildi. DÇ-2018-də qapılara bütövlükdə 169 qol vuruldu ki, bu da mundial tarixində 3-cü ən yaxşı göstəricidir.

Rekord isə DÇ-1998 və DÇ-2014-ə aiddi. Bu dünya çempionatlarında qapılara 171 qol vurulub.

Qeyd edək ki, Rusiyadakı DÇ-də vurulan 169 qoldan 73-ü standart vəziyyətlərdən - künc, penalti və cərimə zərbələrindən sonra qeydə alınıb.

Standart vəziyyətlərdən vurulan qolların payı 43 faiz olub ki, bu da 1966-cı ildə keçirilən mundialdan sonra ən yaxşı göstəricidir. Beləliklə, qol sayına görə DÇ-2018 dünya çempionatları tarixində üçüncü oldu. İlk iki sıranı Fransa-1998 və Braziliya-2014 bölüşdürür. Hər iki çempionatda 171 qol vurulmuşdu.



## Fransızlar tarixlərində ikinci dəfə dünya çempionu adını qazanıblar

Finalda Xorvatiya millisinə 4:2 hesabı ilə qalib gələn Fransa yığması dünya çempionu adını qazanıb. Buna qədər Fransa millisi 1998-ci ildə keçirilən dünya çempionatının qızıl medalını qazanmışdı. Fransızların baş məşqçisi Didye Deşam isə həm futbolçu (1998-ci ildə qalib gələn komandanın aparıcı oyunçularından biri və kapitanı olub - red.), həm də məşqçi kimi dünya kubokunu başı üzərinə qaldıran üçüncü şəxs olub. Buna qədər ancaq braziliyalı Mario Zaqallo və əfsanəvi Frans Bekkenbauer buna nail olublar.



## 5 il əvvəlki uğur əsas komanda ilə təkrarlandı

Xorvatiya yığması isə finalda uduzsa da, tarixində bir ilk imza atıb. Xorvatlar ilk dəfə finala çıxıblar və ilk dəfə gümüş medal qazanıblar.

Avro-2016-nın finalında Portuqaliyaya uduzan (0:1) Fransa millisi həmin məğlubiyyətin əvəzini xorvatlardan çıxmağa çalışacaqdı. 2013-cü ildə Fransanın U-20 yığması ilə dünya çempionu olan Pol Poqba, Samuel Umtiti və digər futbolçular həmin uğuru əsas komanda ilə təkrarladılar.

Məlum olduğu kimi, xorvatlar qrup mərhələsindən sonra finaladək keçirdikləri hər üç matçda əlavə vaxt oynayıb (120 dəqiqə), onlardan ikisində penaltilər seriyasında qalib gəlmişdilər. Hətta belə bir lətifə də yaranıb ki, artıq xorvat dilində 4 zaman var: keçmiş, indiki, gələcək zaman və əlavə vaxt.

Son üç dünya çempionatının finalında oyunun əlavə vaxta qalması faktı da maraqlı məqamdır. DÇ-2006-da qalib penaltilər seriyasında müəyyənləşsə də, 2010-cu və 2014-cü il mundiallarında əlavə 30 dəqiqədə vurulan bir qol çempionluğun taleyini həll etmişdi.

Finalda qarşılaşan komandaların şəxsi görüşlərinə gəldikdə, öz ölkəsində keçirilən DÇ-1998-in yarımfinalında xorvatlara 2:1 hesabı ilə qalib gələn Fransa millisi həmin mundialı çempion kimi başa vurmuşdu. Rəqiblərin Avro-2004-də qrupdakı oyununda isə qalib müəyyənləşməmişdi - 2:2.

## Afrika əsilli yığma

Final qarşılaşmasını dünya yığması ilə bir millətin komandasının mübarizəsi kimi də dəyərləndirmək olar. Fransa komandasının heyətində, bəlkə də, əsl fransızlar yalnız müdafiəçi Benjamin Pavard və cinah oyunçusu Thauvindir. Oyunçuların əksəriyyəti Afrika əsillidir ki (Kamerun, Əlcəzair, Qvineya, Mali, Seneqal, Toqo, Anqola, Konqo, Mərakeş), onların arasında müsəlmanlar da var. Məsələn, qvineyalı Poqba.



## Hücum edən Xorvatiya, qolu vuran Fransa

Moskvanın "Lujniki" stadionunda əsl futbol bayramı yaşanırdı. Görüşün argentinalı baş hakimi Nestor Pitananın start fitindən sonra matça xorvatlar daha sürətli başladılar. Topa daha çox sahib olmaqla cinahlardan təhlükəli epizodlar yaratmağa çalışırdılar. Belə epizodların birində 12-ci dəqiqədə İvan Rakitiçin rəqibin cərimə meydançasına hava ötürməsindən sonra İvan Perişiç topu istədiyi kimi qəbul edə bilmədi.

Daha çox hücum edən xorvatlar olsa da, hesabı fransızlar açdılar. 19-cu dəqiqədə Antuan Qrizmannın yerinə yetirdiyi cərimə zərbəsindən sonra top Mario Mancukiçə dəyərək qapıya daxil olub. Qoldan sonra hesabı bərabərləşdirmək üçün təzyiqləri daha da artıran Xorvatiya istəyinə çatıb. 28-ci dəqiqədə cərimə meydançasına ötürülən topu Domaqoy Vida İvan Perişiçə göndərib. Sonuncunun güvvətli zərbəsi dəqiq olub-1:1.

Matçın 34-cü dəqiqəsində Fransa yığmasının yerinə yetirdiyi künc zərbəsindən sonra topun İvan Perişiçin əlinə dəyməsi ilə əlaqədar yaranan mübahisəli vəziyyət "VAR" sistemi ilə yenidən dəyərləndirilib. Nəticədə, argentinalı referi epizodu penalti kimi qiymətləndirib. 11 metrlik cərimə zərbəsini dəqiq yerinə yetirən Antuan Qrizmann Fransanı yenidən hesabda irəli çıxarıb.

### 10 dəqiqəyə 3 qol

Fasilədən sonra ilk təhlükəli vəziyyəti Fransa yığması yaradıb. Matçın 46-cı dəqiqəsində Mbappenin ötürməsindən sonra Antuan Qrizmannın zərbəsini qapıçı Subaşiç dəf edib. 59-cu dəqiqədə isə Fransa Pol Poqbanın vurduğu baxımlı qolla hesab arasındakı fərqi iki topa çatdırıb.

65-ci dəqiqədə Kilian Mbappe Fransa millisinin dördüncü qolunu vuraraq, xorvatların çempionluq ümidlərinin üzərindən çalın-çarpaz xətt çəkib.

Lakin 69-cu dəqiqədə qapıçı Uqo Lorisə pressinq tətbiq edən Mario Mancukiç qolkiperin səhvindən istifadə edərək hesab arasındakı fərqi azaldıb - 4:2. Bundan sonra tərəflərin səylərinə baxmayaraq, başqa qol olmayıb.

Beləliklə, Fransa millisi 20 illik fasilədən sonra tarixində ikinci dəfə dünya çempionu adını qazanıb.

### DÇ-2018-in ən yaxşıları

Qaliblərin mükafatlandırılması mərasimində FIFA prezidenti Canni İnfantino, Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Fransa Prezidenti Emmanuel Makron və Xorvatiya Prezidenti Kolinda Qrabar-Kitaroviç iştirak ediblər.

Xorvatiya yığmasının kapitanı Luka Modriç çempionatın ən yaxşı futbolçusu, Fransa millisinin gənc hücumçusu Kilian Mbappe isə ən yaxşı gənc futbolçusu elan ediliblər. Ən yaxşı qapıçı adına Belçika millisinin qolkiperi Tibo Kurtua layiq görülüb. İngiltərəli hücumçu Harri Keyn isə vurduğu 6 qolla DÇ-2018-in bombardiri olub.







## Mbappe və Modriçin dueli



Bu qarşılaşmaya Kilian Mbappe və Luka Modriçin dueli kimi də baxmaq olardı. Çempion komandanın üzvü bu il "Ballon d'Or", yəni "Qızıl top"a əsas namizədlərdən biri olacaqdı. Düzdür, "Qızıl top"un tarixində hətta dünya çempionatı ilində mundialda oynamayan birisinin bu mükafatı qazanması faktı var (1978-ci ildə ingilis Kevin Kiqan). Amma son dövrlərə baxsaq, 1998-ci ildə fransız Zinəddin Zidan, 2002-ci ildə braziliyalı Ronaldo və 2006-cı ildə italiyalı Fabio Kannavaro dünya çempionu olmaqla bərabər, "Qızıl top"a da sahib çıxıblar.

2010 və 2014-cü illərdə isə bu mükafat, müvafiq olaraq, çempion ispan və alman futbolçulara deyil, həmin mundiallarda uğursuz çıxış edən argentinalı Lionel Messi və portuqaliyalı Kristiano Ronaldoya qismət olmuşdu.

# Dövlət Neft Fondu bu vaxtadək "Star" layihəsinə 1,6 milyard manat xərcləyib



Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) indiyədək SOCAR-ın Türkiyədəki "Star" neft emalı zavodunun tikintisinin maliyyələşdirilməsinə 1 milyard 663,3 milyon manat yönəldib.

Təkcə 2017-ci ildə isə Neft Fondu tərəfindən "Star" neft emalı kompleksinin inşasına 735,4 milyon manat vəsait ayrılıb.

Qeyd edək ki, 6,3 milyard dollar kapitalla Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda, "Petkim" neft-kimya kompleksinin ərazisində inşası davam etdirilən "Star" neft emalı zavodu layihəsi üzrə 99,1 faiz irəliləyişə nail olunub və 5,2 milyard dollar xərclənib. Zavod oktyabrın əvvəlində istifadəyə verildikdə 6,3 milyard dollarlıq investisiya da tamamlanacaq. 2018-ci ilin üçüncü rübündə zavodda istehsal ediləcək məhsulların satışının həyata keçirilməsi planlaşdırılır. "Star" neft emalı zavodu bu ilin dekabr ayından etibarən tam gücü ilə çalışmağa başlayacaq.

"Star" hər il 10 milyon ton xam neft emal edəcək. Zavodda ildə 1,6 milyon ton nafta, 1,6 milyon ton təyyarə yanacağı, 4,8 milyon ton az kükürdlü dizel yanacağı, 700 min ton neft koksu və 160 min ton kükürd istehsal olunacaq.

Zavodun təməli 2011-ci il oktyabrın 25-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulub.

# Üzən günəş panelləri sistemi ilə bağlı pilot layihə həyata keçiriləcək

Azərbaycanda üzən günəş panelləri sistemi ilə bağlı pilot layihə həyata keçiriləcək.

Energetika Nazirliyindən bildirilib ki, "Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi"nin tam şaxələndirilmiş və ekoloji baxımdan təmiz elektrik enerjisi istehsalının təmin edilməsi hədəfinə uyğun olaraq, nazirlik Asiya İnkişaf Bankının dəstəyi ilə üzən günəş panelləri sistemi ilə bağlı pilot layihə həyata keçirəcək. Nazirlər Kabineti "Üzən günəş panelləri sisteminin inkişafına dair biliklərin mübadiləsi və texniki yardım dəstəyi" adlı pilot layihənin icrasına icazə verib. Asiya İnkişaf Bankı tərəfindən məsləhətçi şirkətin seçilməsi üçün tender prosesi yekunlaşdıqdan sonra layihə üzrə işlərə başlanması planlaşdırılır.



Layihə çərçivəsində Böyükşor gölündə hər biri 100 kilovata qədər gücə malik olacaq 3 ədəd fotovoltaik sistemin quraşdırılması, həmçinin günəş qurğularının quraşdırılmasında özəl sektorun iştirakının təşviqi məqsədilə biznes modellərin formalaşdırılması, bu sahədə milli potensialın gücləndirilməsi, eləcə də müasir norma və prinsiplərin tətbiq edilməsi nəzərdə tutulur.

Energetika Nazirliyi alternativ və bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi məqsədilə mövcud potensialın qiymətləndirilməsi, bu istiqamətdə həyata keçiriləcək layihələrin müəyyənləşdirilməsi və beynəlxalq təşkilatlarla əməkdaşlıq əsasında qabaqcıl təcrübənin öyrənilməsi ilə bağlı kompleks tədbirlər görür.

# Bu il ölkə üzrə 946,4 min kvadratmetr yeni yaşayış evləri istifadəyə verilib



Bu ilin birinci yarısında bütün maliyyə mənbələri hesabına ümumi sahəsi 946,4 min kvadratmetr və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,9 faiz çox yeni yaşayış evləri tikilərək istifadəyə verilib.

Dövlət Statistika Komitəsindən bildirilib ki, yanvar-iyun aylarında mənzil tikintisində istifadə edilmiş vəsaitin həcmi 463,8 milyon manat olub, onun 89,3 milyon manatı dövlət, 374,5 milyon manatı isə qeyri-dövlət mülkiyyətində olan müəssisə və təşkilatların, habelə əhalinin payına düşüb.

Ölkə vətəndaşları mənzil şəraitlərinin yaxşılaşdırılması məqsədilə şəxsi vəsaitləri hesabına 6 min yaşayış evi tikiblər. Onların əksəriyyəti Naxçıvan Muxtar Respublikasında, Bakı və Sumqayıt şəhərlərində, Masallı, Tovuz, Qazax, Abşeron, Qəbələ, Şəmkir və Cəlilabad rayonlarında inşa edilib.

KİVDF
Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.**

# YANLIŞ QİDALANMA MÜASİR XƏSTƏLİKLƏRİN YARANMA VƏ İNKİŞAFINDA APARICI AMİLDİR

***Qida hər zaman həyatın mühüm problemi olub, məmnunluq və ya əzab mənbəyidir; həkim əlində möhtəşəm şəfaverici qüvvə, cahil əlində məhvedici silahdır.***

***Akademik İ.İ.Pavlov***



**Nutrisioloq-dietoloq həkim Amaliya Rəhimova (Bioloji Təbabət Klinikası)**

Azərbaycanda əhalinin sağlamlığının qorunmasına və səhiyyə xidmətlərinin dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə çatdırılmasına yönələn dövlət siyasəti ölkənin uzunmüddətli inkişaf strategiyasının mühüm elementlərindən biridir. Belə ki, sağlam insan və güclü səhiyyə uzunmüddətli, dayanıqlı inkişafı təmin etmək üçün insan resurslarına nail olmağa imkan verir. Bioloji Təbabət Klinikasının elm şöbəsinin əməkdaşı, nutrisioloq-dietoloq həkim Amaliya xanım Rəhimovanın sözlərinə görə, yanlış qidalanma müasir xəstəliklərin yaranma və inkişafında aparıcı amildir. Əsrlər boyu təbabət, əsasən, yaralanmış, infeksion və digər kəskin xəstəliyə düçar olmuş insanların müalicəsinə yönəlmişdir. Müasir dövrdə həkimlərə müraciətlərin əksəriyyəti tədricən inkişaf edən, gizli gedən sistemli və xroniki patologiyalar ilə əlaqəlidir. Hazırda xroniki-degenerativ, yəni illərlə inkişaf edən, sonda isə sağalmayan və ya çətin sağalan xəstəliklər çox geniş yayılmışdır. Tibbin, yeni supertexnologiyaların inkişafına rəğmən, xəstəlik sayı azalmır ki, artır, onların müalicəsində isə nəzərəçarpan, mükəmməl bir nəticə əldə edilmir. Hər il inkişaf etmiş ölkələrdə ürək-damar və digər xroniki xəstəliklərdən milyonlarla orta yaşlı insan həyatını itirir. Bu növ xəstəliklərin vüsət alması dünyada, o cümlədən ÜST tərəfindən ciddi narahatlığa səbəb olub. Onlar, həmçinin ailə büdcəsi və səhiyyə sistemi üçün ağır yükdür. Əsasında gizli iltihab dayanan bu xəstəliklər sırasına infarkt, insult kimi damar krizlərinə səbəb olan ateroskleroz, daha sonra onkoloji xəstəliklər, autoimmun, neyrodegenerativ (Alsheymer, Parkinson), dayaq-hərəkət sistemi xəstəlikləri (artritlər, artroz, skolioz), astma, allergiyalar, metabolik pozulmalar (şəkərli diabet, piylənmə), funksional somatik sindromlar adlanan xroniki yorğunluq sindromu, fibromialgiya, tükənmə sindromu, və s. aiddir. Bu xəstəliklərin yaranma səbəbləri müxtəlifdir. İrsi meyillilik, ekoloji durum, psixoemosional stress, xarici toksinlər (bisfenol, ftalat) mühüm səbəbkar kimi çıxış edərək, ümumi amillərin yalnız 30-40%-ni təşkil edir. 60-70% isə life style, yəni həyat tərzi, o cümlədən yanlış qida vərdişləri ilə bağlıdır. Uzun illər davam edən yanlış qidalanma tədricən orqanizmin kompensator imkanlarının tükənməsinə, adaptasiya qabiliyyətinin azalmasına və nəhayət, xəstəliyə və vaxtından tez qocalmasına səbəb olur.

Amaliya xanım qeyd edir ki, xroniki xəstəliklərin müalicəsində istifadə olunan dərmanların çox hallarda daimi, yəni ömürlük təyini, onların törətdiyi fəsadlar və ən əsası müalicələrin uzunmüddətli və əsasən uğursuz olması yeni müalicə metodlarının axtarışını zəruri etmişdir. Bu baxımdan artıq bir çox pasient və həkimlər zərərsiz, ən əsası isə xəstəliyin nəticəsinə deyil, səbəbinə yönəli alternativ müalicə üsullarına üstünlük verir. Dünya praktikasında bu növ xəstəliklərin müalicə və profilaktikasında Bioloji Təbabət Klinikasında biotənzimləyici, izopatik, mikrobioloji, ortomolekulyar və dietoterapiyadan geniş istifadə olunur. Bakıda mərkəzi klinikası, Göyçay və Sumqayıtda filialları fəaliyyət göstərən Bioloji Təbabət ölkə əhalisi və xarici vətəndaşlara neçə illərdir ki, dəyərli xidmət göstərir. Xroniki xəstəliklərin müalicəsinə yanaşma, qeyd etdiyimiz kimi, çoxistiqamətlidir, lakin hər bir xroniki xəstənin müalicə protokolunun ilk bəndi dietoterapiya, yəni qidalanma vasitəsilə sağlamlaşmadır.

**Nə üçün bioloji terapiya zamanı qida korreksiyası bu qədər önəmlidir?**

Amaliya xanım bunu belə izah edir: "Məlumdur ki, hər bir orqan milyardlarla hüceyrədən ibarətdir və bu orqanın normal və ya qeyri-kafi fəaliyyəti onun hüceyrələrinin yaşam mühitindən birbaşa asılıdır. Orqanizmdə hüceyrələr yalnız şəffaf, duru mayeli mühitdə fəaliyyət göstərərkən, orqanın və bütövlükdə orqanizmin sağlamlığını təmin edə bilər. Təəssüf ki, müasir qidalanma daxili mühiti kobud şəkildə dəyişərək, metabolik pozulmalara, onların əsasında isə "sivilizasiya xəstəlikləri" adlanan müxtəlif patologiyalara yol açır. Bu mühitin duru, axarlı deyil, qatı bir substansiyaya çevrilməsi hüceyrəarası kommunikasiyaları, hüceyrələrlə mərkəz arasında əlaqələri əngəlləyərək, istənilən terapiyanı bəri başdan uğursuzluğa məhkum edir. Bu mühitin isə normallaşması uğurlu terapiyanın çox vacib şərtidir. Bunun ən fizioloji və qısa yolu isə qida korreksiyasıdır.

**"Heç bir xroniki xəstəni onun qidasını korreksiya etmədən müalicə etmək mümkün deyil"**, - deyən Amaliya xanımın sözlərinə görə, bu baxımdan drenaj-detoksikasiya və müalicənin ilkin mərhələsində qida korreksiyası (qida ilə daxil olan toksin axınının dəf edilməsi, qida toksikozunun aradan qaldırılması və faydalı (qələvi) qida vasitəsilə endoekologiyanın normallaşdırılması) uğurlu terapiyaya zəmin yaradır. Biotənzimləyici preparatlarla birgə tətbiq edilən sağlam, faydalı qidalanmanın köməyilə xəstəliklərin əsas səbəbi olan sistemli iltihabı dayandırmaq, xəstəliyin irəliləməsini əngəlləmək, bir çox hallarda isə qarşısını almaq mümkündür.

**Buna necə nail olmaq olar?**

İstifadə etdiyimiz bütün qida məhsulları 2 yerə ayrılır: iltihab törədən və əksinə, iltihabı əngəlləyən. İnsanın sağlıq durumu bu iki növ qida məhsulunun nisbətindən asılıdır. Bu nisbət 30:70 olmalıdır, lakin müasir rasionda onun tam əksi müşahidə olunur. Belə ki, karbohidrat və heyvani zülallarla ifrat yüklənmiş müasir rasion müxtəlif istiqamətli zədələyici təsir göstərir. Onların bir neçəsinin təsviri bu təsirin nə dərəcədə dərin olduğunu anlamağa kifayət edər.

**Yüksəlmiş bağırsaq sindromu (leaky gut** - dəlikli, yaxud aşsüzən bağırsaq), yəni iltihabtörədici qidalarla (karbohidrat və heyvani zülalların yüksək miqdarı) bağırsaq selikli qişasının lokal zədələnməsi (iltihabı); nəticədə bağırsaq hüceyrələrinin baryer funksiyasının pozulması və müxtəlif irimolekullu maddələrin qan dövranına axması nəticəsində yaranan sistemli iltihab;

**Disbioz** - liflərlə kasad, karbohidrat və zülallarla zəngin qidalanma nəticəsində qoruyucu bakteriyaların azalması, zədələyici mikrobların sayının artması nəticəsində müxtəlif patologiyaların inkişafı;

**Qlikasiya** - sadə şəkərlə yüklənmiş qidalanma zamanı artıq şəkərin mühüm zülallarla birləşərək onların fəaliyyətinin əngəllənməsi, həmçinin güclü iltihabtörədici qlikotoksinlərin əmələ gəlməsi;

**Autofagiya** - hər bir sağlam hüceyrədə metabolitlərin, yəni qalıq məhsulların parçalanma mexanizmidir: bu, prosesin karbohidrat və zülallarla yüklənmiş qidalar vasitəsilə pozulması detoksikasiyanın əngəllənməsi və qocalmanın sürətlənməsi deməkdir.

**Asidoz** - sağlam orqanizmdə normal mühit qələvi olmalıdır, lakin karbohidrat, transyağlar və heyvan mənşəli zülallarla yüklənmiş qidalar daxili mühiti turşulaşdıraraq müxtəlif patologiyaların inkişafı üçün münbit şərait yaradır.

Yanlış qidalanma ilə əlaqəli bu amillərin aradan qaldırılması, biokimyəvi reaksiyaların rəvan getməsi üçün orqanizmin makro və mikro maddələrlə zənginləşdirilməsi, autofagiyanı aktivləşdirən fasiləli qida rejiminin tətbiqi (intermittent fasting) xroniki xəstəliklərin müalicəsi üçün mühüm şərtdir. Xroniki xəstəliklərin müalicəsi ilə yanaşı, onların profilaktikası da çox vacib məsələlərdən biridir. Bu baxımdan Bioloji Təbabətin təklif etdiyi preventiv tədbirlər, sağlam həyat tərzinə dair tövsiyələr sağlamlığın zamanında qorunmasında yardımçı ola bilər. Bioloji təbabət üsulları ilə aparılan preventiv terapiya aşağıdakı bəndləri əhatə edir:

-cari sağlamlıq durumunun qiymətləndirilməsi (laborator analizlər, instrumental diaqnostika...);
- anamnezə, laborator-funksional nəticələrə əsasən ehtimal edilən xəstəliklərin təqribi proqnozlaşdırılması;
-əldə olunan göstəricilərə əsasən detoks-proqramın tərtibi;
-müalicəvi, daha sonra isə tam balanslı qida protokolunun tərtibi.

**Cari statusa uyğun olaraq il ərzində 1-2 dəfə reallaşan və 4-6 həftə davam edən preventiv terapiya ilə nəyə nail olmaq olar?**

- orta yaşlı populyasiyanı, xüsusən də kişiləri daim təqib edən ürək-damar və s. xəstəliklərin riskinin xeyli azalması;
- zehni fəaliyyətin, iş qabiliyyətinin yüksəlməsi;
- psixoloji durumun stabilləşməsi;
- sağlıqla bağlı həkimə vizitlərdən azad olmaq.

Preventiv terapiya baxımından xüsusi tövsiyələr gənc analaradır. Körpəlikdən uşağa faydalı qida vərdişlərinin aşılanması onların övladlarına qoya biləcəyi ən böyük sərmayədir. Ölkənin, ümumiyyətlə bəşəriyyətin gələcəyi, sözün əsl mənasında, anaların əlindədir. Hər bir uşağın, yeniyetmənin sabah uğurlu, işgüzar biri olması bu gün anaların mətbəxdə nə hazırladığından birbaşa asılıdır.

**Nailə CABBAROVA**

# Mətbuat Şurasının İdarə Heyətinin genişləndirilmiş iclası keçirilib



İyulun 16-da Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin genişləndirilmiş iclası keçirilib.

Mingəçevirdə baş vermiş enerji qəzasının və Gəncə terrorunun mediada işıqlandırılması vəziyyətinə həsr olunmuş toplantıda Şuranın İdarə Heyətinin üzvləri, ölkənin ictimai rəyə təsir göstərən kütləvi informasiya vasitələrinin, o cümlədən internet informasiya resurslarının rəhbərləri iştirak ediblər.

İclası açan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov bildirib ki, Mingəçevirdəki qəza və Gəncə Şəhər İcra Hakimiyyətinin başçısına qarşı terror ilə başlamış iğtişaş ölkənin gündəmində olan başlıca mövzulardandır. Azərbaycan Mətbuat Şurasının müşahidələri göstərir ki, media ümumən hər iki hadisəyə obyektiv prizmadan yanaşdı və ictimai rəyi düzgün istiqamətə yönləndirməklə peşəkarlıq nümayiş etdirdi. Lakin məsələyə fərqli aspektdən yanaşmış internet informasiya resursları və sosial şəbəkə profilləri də oldu. Onlar özlərinə sərfəli fikir və düşüncələri, bir növ, fakt kimi təqdim edərək cəmiyyətdə çaşqınlıq yaratmaq yolu tutdular. Eyni zamanda, biz aşkar təfriqəçilik meyillərinin, insanları hakimiyyətə qarşı qaldırmaq cəhdlərinin, din pərdəsi altında iğtişaşlar yaradaraq Azərbaycanın nüfuzunu ləkələmək istəklərinin şahidi olduq. Bütün bunlara Azərbaycan ictimaiyyəti olduqca sərt reaksiya verdi. Bu reaksiyanın formalaşmasında media ictimaiyyətinin rolu böyükdür. Azərbaycanda qərarlaşmış asayişi, sabitlik mühitini pozmaq istəyən antimilli qüvvələrə qarşı ictimai səfərbərliyin təmin edilməsi son dərəcə vacibdir. Ölkəmizin adı ilə bağlı olan və dünyanın enerji xəritəsini dəyişən nəhəng layihələr, Milli Ordumuzun 100 illiyinə həsr olunmuş möhtəşəm hərbi parad xaricdəki bəzi anti-Azərbaycan qüvvələri hərəkətə keçirib. Azərbaycan gücləndikcə ona qarşı təhdidlər, o cümlədən informasiya müstəvisindəki təxribatlar artır. Təəssüf ki, bu prosesdə xaricdə yaşayan azərbaycanlılar da alətə çevrilirlər. Zaman-zaman biz bu kimi halların şahidi olmuşuq. Hər hansı hadisənin timsalında ölkə rəhbərliyi, ayrı-ayrı məmurlar təhqir olunur, ünvanlarına aşağılayıcı ifadələr səslənir. Məqsəd ölkədə xaos, etimadsızlıq, inamsızlıq mühiti yaratmaqla mövcud konstitusion quruluşu devirməkdir. Media ictimaiyyəti olaraq biz bu kimi təhlükəli təmayüllərə münasibətdə ayıq olmalı, qətiyyətli mövqe nümayiş etdirməliyik.

Mətbuat Şurasının İdarə Heyətinin üzvü, "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov bildirib ki, ölkəmizdəki sabitliyi pozmağa cəhd edən qüvvələr ən müxtəlif vasitələrdən istifadə edirlər. İnformasiya texnologiyalarının sürətli inkişafı nəticəsində onlar daha da fəallaşıblar. Mövcud xüsusda sosial şəbəkələrdə yayılmış fikirlərə toxunan deputat vurğulayıb ki, bu məkandakı paylaşımların məlumat kimi cəmiyyətə çatdırılması praktikasına ehtiyatla yanaşılmalıdır. Ümumilikdə, ölkə mediası son hadisələrin doğurduğu sınaqdan üzüağ çıxmağı bacardı.

Azərbaycana müxtəlif ölkələrdən dini təsirlərin həyata keçirildiyini və bu istiqamətdə çoxsaylı informasiya resurslarının fəaliyyət göstərdiyini vurğulayan MŞ İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Aqil Abbas bildirib ki, cəmiyyətin informasiya təminatı prosesində jurnalistlərlə yanaşı, müvafiq dövlət qurumları da iştirak edirlər.

Şuranın İdarə Heyətinin üzvü, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu bildirib ki, Gəncə terroru və Mingəçevirdə baş vermiş qəza ilə bağlı rəsmi informasiya verilməyənədək yayılmış yanlış məlumat axınına qoşulanlar oldu. Bu cür məqamlara diqqət yetirilməli və belə halların gələcəkdə baş verməməsi üçün sistemli iş aparılmalıdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru, MŞ İdarə Heyətinin üzvü Vüqar Səfərli diqqəti ekstremal vəziyyətlərdə əlaqədar dövlət qurumlarının ilk mənbə rolunda çıxış etməsinin vacibliyinə yönəldib. Bu baxımdan məsuliyyət hissinin artırılmasının zəruriliyini əsaslandırıb.

MŞ İdarə Heyətinin üzvü, "APA Holdinq"in rəhbəri Vüsalə Mahirqızı çıxışında dövlət qurumları ilə kütləvi informasiya vasitələrinin əməkdaşlığının gücləndirilməsi məsələlərinə toxunub. O bildirib ki, müvafiq dövlət qurumlarının təmsilçiləri ilə media rəhbərləri arasında qeyri-rəsmi görüşlərin təşkilinə ehtiyac var.

Şuranın İdarə Heyətinin üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə vurğulayıb ki, istər Gəncə hadisələri, istərsə də Mingəçevirdəki qəza ilə bağlı yanlış fikirləri tirajlayan saytların bir çoxu xaricdən idarə olunduğundan onlara qarşı mübarizədə diplomatik metod və vasitələrdən də geniş istifadə olunmalıdır. Zəruri hallarda prosesə xaricdəki nümayəndəliklər də cəlb edilməlidir.

MŞ İdarə Heyətinin üzvü, "Teleqraf Holdinq"in rəhbəri Aynur Camalqızı media orqanları ilə dövlət qurumlarının əməkdaşlığının daha da gücləndirilməsinin zəruriliyinə diqqət yetirərək vurğulayıb ki, vacib hadisə və proseslər zamanı informasiya boşluğu yaranırsa, ayrı-ayrı sosial şəbəkə profillərinin fəaliyyəti güclənir və cəmiyyət yanlış istiqamətə yönləndirilir.

Şuranın İdarə Heyətinin üzvü, "Xalq cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəyli isə təklif edib ki, dövlət qurumları hər hansı hadisə ilə əlaqədar dəqiqləşdirmələr apardıqları müddətdə yaranmış informasiya boşluğunun qarşısının alınması üçün KİV-lə fəal təmaslara malik hazırlıqlı ekspert qrupu fəaliyyət göstərməlidir. Bu yolla cəmiyyətin yanlış səmtə yönləndirilməsinin qarşısı alına bilər.

MŞ İdarə Heyətinin üzvü Azər Həsrət fövqəladə hallar zamanı operativ qərargahın yaradılmasının və bu işə media orqanlarının da cəlb edilməsinin mühüm əhəmiyyət daşıdığını əsaslandırıb.

Media orqanlarının son hadisələr zamanı ümumən kifayət qədər peşəkar mövqe ortaya qoyduqlarını vurğulayan MŞ sədrinin müavini, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli diqqəti "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanundan irəli gələn tələblərə çəkib və bildirib ki, ölkə qanunvericiliyində dövlət əleyhinə çağırışlar edən elektron media vasitələrinin fəaliyyətinin məhdudlaşdırılması ilə bağlı konkret müddəalara istinad edilməsi də mütləqdir.

# "Barama Junior 2018 / Summer IT school for kids" layihəsinə start verildi




Gələcək nəslin inkişafına dəstək məqsədilə bir çox layihələr həyata keçirən "Azercell Telekom" MMC daha bir təşəbbüslə çıxış edir. Azercell Telekom MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi PAŞA Bankın dəstəyi ilə məktəblilərin yay tətilini daha səmərəli və məhsuldar keçirməsi üçün "Barama Junior 2018 / Summer IT school for kids" layihəsini təqdim edir. Artıq üçüncü ildir reallaşan "Coding Kids – Summer Course" layihəsi məktəblilərə kompüter və telefonların oyun və əyləncədən əlavə daha faydalı imkanlarını izah edəcək. 9-11 və 12-15 yaşlı məktəblilər üçün nəzərdə tutulan layihə çərçivəsində Python, Raspberry Pi və HTML proqramları tədris ediləcək. İnteraktiv tədris metodları əsasında keçirilən dərslər Coding Club Kids şirkətinin Python və mobil app instruktoru, Bakı Mühəndislik Universitetinin İKT laboratoriyasının proqramçısı Tural Əhmədov və Coding Club Kids şirkətinin veb-dizayn instruktoru, Bakı Mühəndislik Universitetinin İKT laboratoriyasının idarə heyətinin üzvü, araşdırmaçı və proqramçı Tural Sadıqov tərəfindən aparılacaq. Barama İnnovasiya və Sahibkarlıq Mərkəzində keçiriləcək dərslər ödənişsizdir və həftədə 3 dəfə tədris ediləcək. Dərslərə 30 iyul tarixindən start veriləcək və 4 həftə boyunca davam edəcək. Layihədə iştirak etmək üçün 20 iyul 2018-ci il tarixinə qədər Bit.ly/Barama linki vasitəsilə qeydiyyatdan keçmək lazımdır. Bu layihə çərçivəsində uşaqların inkişafı üçün əvəzedilməz bilik və bacarıqları əldə etmək imkanını qaçırmayın.

# Azercell-in 4G şəbəkəsi daha 5 bölgə boyu genişləndi

Keyfiyyətli və innovativ xidmətlərilə fərqlənən Azərbayanın lider mobil operatoru Azercell Telekom ölkəmiz boyu 4G şəbəkəsini genişləndirməkdə davam edir. Şirkət daha 5 şəhərdə - Ağcabədi, Balakən, Qəbələ, Quba və Tovuzda 4G şəbəkəsini qurdu və bununla da yüksək sürətli mobil internet xidmətlərindən istifadəni ümumilikdə respublikanın 12 bölgəsində mümkün etdi. Xatırladaq ki, bundan öncə Azercell-in 4G xidmətləri Gəncə, Şirvan, Şəmkir, Bərdə, Lənkəran, Masallı və Cəlilabadda mövcud idi. Eyni zamanda, Azercell Bakı və bölgələrdə4G stansiyalarının sayını 2018-ci il ərzində 2 dəfə artıraraq abunəçilərinə bu xidmətin üstünlüklərindən yararlanmaq imkanı verdi.Belə ki, təkcə bu ilin ilk 6 ayı ərzində toplam 113 olmaqla, Bakıda 26, Sumqayıtda 28, Abşeronda 12, Ağcabədidə 8, Balakəndə 7, Cəlilabadda 5, Masallıda 6, Qəbələdə 8, Qubada 7 və Tovuzda 6 LTE şəbəkəsi üzərində çalışan stansiya quraşdırılıb. Hazırda Azercell toplam 2826 2G, 2208 3G və 663 4G stansiyaları sayəsində bütün abunəçilərini yüksək keyfiyyətli mobil rabitə xidməti ilə təmin edir.

Qeyd edək ki, artıq 4G-ni dəstəkləyən həm Sim kartı, həm də mobil cihazı olan Azercell abunəçiləri Azercell müştəri xidmətləri mərkəzlərinə müraciət etmədən 4G xidmətindən yararlana biləcəklər. Bunun üçün abunəçinin istifadə etdiyi cihazda sadəcə 4G-ni seçməsi yetərilidir.

Azercell şirkəti bu ilin sonuna kimi 4G şəbəkəsinin coğrafiyasını Azərbaycanın əksər bölgələri və şəhərləri boyu genişləndirməyi planlaşdırır.

Bu ilin sonuna kimi Bakı, Abşeron ərazisində daha 300 ədəd və bölgələrdə toplam 182 ədəd 4G stansiyasının qurulması nəzərdə tutulub.

Ölkədə 4G xidmətini ilk dəfə abunəçilərinə təqdim edən və Azərbaycanın bütün bölgələrini yüksək sürətli mobil internetlə təmin etməyi hədəfləyən Azercell-in 4G internet istifadəçilərinin sayı əvvəlki illərlə müqayisədə 3 dəfə artıb, mobil internetdən istifadə həcmi isə 50% çoxalıb.

# Bakcell-in 4G xidməti ölkənin 30-dan çox bölgəsində




Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti daha çox abunəçisinin yüksək keyfiyyətli mobil rabitə xidmətlərindən yararlana bilməsi üçün 4G LTE əhatə dairəsini genişləndirir.

"Bakcell"in 4G xidməti artıq Bakı və Abşeron yarımadası, Gəncə şəhəri, Quba, Qusar, Xaçmaz, Şəki, Zaqatala, Qəbələ, Lənkəran, Mingəçevir, Şəmkir, Şirvan, Siyəzən rayonları daxil olmaqla ölkənin 30-dan çox rayon və şəhər mərkəzlərində mobil operatorun abunəçilərinə ən üstün müştəri təcrübəsini təmin edir. Şirkətin 2018-ci ilin ilk yarısında ölkə ərazisində quraşdırdığı 400-ə yaxın yeni baza stansiyasının 300-dən çoxu 4G-ni dəstəkləyir.

"Azərbaycan bazarında yüksək sürətli mobil internet xidmətlərinə olan tələbat və 4G texnologiyasını dəstəkləyən cihazların sayı əhəmiyyətli dərəcədə artmaqdadır və bunu nəzərə alaraq, şirkətimiz LTE xidmətlərinin əhatə dairəsinin ölkənin bölgələrində genişləndirilməsini də sürətlə həyata keçirməyə davam edir. Artıq Bakı, Abşeron və Gəncə sakinləri ilə yanaşı, ölkənin 30-dan çox bölgəsində yaşayan müştərilərimiz Bakcell şirkətinin təqdim etdiyi ən yüksək keyfiyyətli və ultra-sürətli 4G internetindən yararlanmaq imkanına malikdirlər. Bakcell şirkəti öz şəbəkəsinə böyük həcmdə investisiya qoyuluşları sayəsində və dünya bazarında mövcud olan ən innovativ texnologiyaları tətbiq etməklə öz LTE şəbəkəsinin Azərbaycanın bölgələrində əhatəsini bundan sonra da genişləndirməyə davam edəcək", - deyə Bakcell şirkətinin baş icraçı direktoru Nikolai Beckers bildirib.

Mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan "P3 Communications" şirkəti tərəfindən Bakcell şirkəti Azərbaycanda "Best in Test" (sınaq nəticələrinə görə ən yaxşı) adına layiq görülüb.

# "Excelsior Hotel & Spa Baku"-da"İşgüzar danışıqlar" mövzusunda tədbir keçirilib

13 iyul tarixində "Excelsior Hotel & Spa Baku" otelində "İşgüzar danışıqların aparılması" mövzusunda tədbir keçirilib. "Buisness Ring" şirkətinin rəhbəri Səbinə Rəhimova tərəfindən aparılan tədbirdə iştirakçılar bu sahədə debatlarda iştirak ediblər. Tədbirdə "AtaHolding" Korporativ Kommunikasiyalar şöbəsinin rəisi Dilarə Zamanova, otelin HR meneceri Kamran Rzayev, "Aura" Sağlamlıq mərkəzinin meneceri Səbinə Yusifova və digərləri iştirak ediblər. "Business Ring" şirkətinin rəhbəri Səbinə Rəhimova hər bir xidmət sahəsində işgüzar danışıqların düzgün aparılmasının



xüsusi yeri olduğunu qeyd edib.

"AtaHolding" Korportiv Kommunikasiyalar şöbəsinin rəisi Dilarə Zamanova bildirib ki, holdinqin korporativ kommunikasiyalar şöbəsinin fəaliyyət planına uyğun olaraq il ərzində keçirilən müxtəlif təlimlər, tim-bildinq xarakterli tədbirlər iştirakçılar tərəfindən maraqla qarşılanır.

Bu cür tədbirlər iştirakçılara yeni məlumatlar əldə etməklə yanaşı, həmçinin öz bilik və bacarıqları nı bir-biri ilə bölüşmək imkanı yaradır.

Qeyd edək ki, "Business Ring" şirkəti yay mövsümündə xüsusi aksiya keçirir. Aksiyaya əsasən, bir çox iri şirkətlərin kollektivləri üçün "İşgüzar danışıqların aparılması", "Menecmentin innovativ üsulları", "Konfliktlərin idarə edilməsi" və digər mövzularda master-klasslar keçirir.


# E L A N

**03 sentyabr 2018-ci il, saat 10:00-da "Bakı Sığorta" ASC-nin Yasamal rayonu, A.M.Şərifzadə küçəsi 315C ünvanında yerləşən inzibati binasında Cəmiyyətin səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir. İclasın gündəliyi, əlavə məlumat, o cümlədən səhmdarların ümumi yığıncağının gündəliyi üzrə materiallarla tanış olmaq üçün "Bakı Sığorta" ASC-yə (Bakı şəh., Yasamal rayonu, A.M.Şərifzadə küçəsi 315C ünvanı), həmçinin (012)969 telefon nömrəsi vasitəsi ilə müraciət edilə bilər.**


Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500